

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 40 (24.422)

5 oktyabr 2024-cü il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


## 3 oktyabr 1993-cü il



# Ümumxalq sevgisinin ən ali zirvəsi

Böyük alman filosofu Fridrix Nitşe deyirdi ki, tarix şəxsiyyətləri deyil, şəxsiyyətlər tarixi yaradır. Bəli, gərgin ictimai-siyasi hadisələrin cərəyan etdiyi ayrı-ayrı dövrlərə, ölkələrin həyatına, zaman-zaman dəyişilən dünya düzəninə nəzər yetirəndə aydın olur ki, tarix dahi insanların ideya və əməllərinin üzərində yaranır, qərar tutur. Məhz Ümummilli Liderimiz Heydər Əliyev də belə nadir görkəmli şəxsiyyət, fenomen insanlardan biridir ki, onun əbədiyaşar ideyaları üzərində müasir, müstəqil, qüdrətli, qalib, bütöv Azərbaycan bərqərar olunub. Otuz bir il öncə bu gün xalqımız həyatında taleyüklü məsələlərin ən mühümlərindən birinə imza atmaqla Ulu Öndər yoluna, ideyalarına səs verməklə ölkəmizin müstəqil siyasət yürüdən dövlət kimi beynəlxalq arenaya çıxmasına, söz, nüfuz sahibi olmasına şərait yaratdı. 1993-cü il 3 oktyabr ümumxalq sevgisinin ən ali zirvəsi, bariz göstəricisi kimi tarixə, yaddaşlara əbədi həkk olundu.

Səhifə 2




# Zəfərin qələbə soraqlı ilk şəhəri Cəbrayıl

## Prezident İlham ƏLİYEV:

*“Cəbrayıl rayonuna gəlmişik. Vaxtilə Cəbrayıl rayonunun girişində ucaldılmış lövhəni biz indi yenidən qurduq və eyni formada, eyni dizaynla. Biz “Cəbrayıla xoş gəlmişsiniz!” lövhəsini bərpa etdik. Sovet vaxtında bu abidə, əgər belə demək mümkündürsə, qoyulmuşdur, ucaldılmışdır və işğal dövründə tamamilə sökülmüş, paslanmışdır. Bunun paslanmış görüntüləri artıq mətbuatda da var. Ona görə tarixi ədaləti bərpa edərək Cəbrayıl rayonunun girişində yerləşən bu “Xoş gəlmişsiniz!” lövhəsini, abidəni biz yenidən bərpa etdik. Azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bütün şəhərləri, kəndləri bərpa edəcəyik.”*

Səhifə 3

## “Naxçıvan müqaviləsinin 15-ci ildönümündə Türk Dövlətləri Təşkilatı” mövzusunda tədbir keçirilib



Səhifə 4

## Gələcək naminə parlayan Günəş, *yaxud yolumuza mayak olanlar...*




Səhifə 10

# 3 oktyabr 1993-cü il

# Ümumxalq sevgisinin ən ali zirvəsi



(əvvəli 1-ci səhifədə)

***Naxçıvandan başlanan müstəqillik tarixi, inkişaf yolu***

Tarixi hadisələri xronoloji ardıcıllıqla nəzərdən keçirəndə aydın olur ki, ölkəmizi müstəqilliyə, Milli Qurtuluşa aparan, 1993-cü il oktyabrın 3-nə gedən yol məhz 1990-cı ilin iyulun 22-də görkəmli dövlət xadiminin Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdışı ilə başlayıb. Təsadüfi deyil ki, siyasi şərhçilər tərəfindən həmin tarix böyük qurtuluşa Vətəndən başlanan yolun başlanğıc günü adlandırılır. Bu baxımdan Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi 1990-1993-cü illəri yada salmamaq, həmin mərhələni Azərbaycanın müstəqil dövlət quruculuğu tarixində ən mühüm dövr kimi xarakterizə etməmək olmaz. Məhz bu illərdə verilən tarixi qərarlarla müstəqil Azərbaycanın təməl prinsipləri formalaşdırılıb, ölkəmizin gələcək inkişafının əsasları qoyulub. 15 İyun – Milli Qurtuluş Gününün davamı kimi, 1993-cü il oktyabrın 3-də Ulu Öndərin Prezident seçilməsi ilə ölkəmiz əsl müstəqilliyə qovuşdu, müstəqil dövlət kimi dünyada mövqe qazanmağa başladı. Ötən il mayın 23-də Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı ölkə başçısı cənab İlham Əliyev xalqa müraciətində həmin vacib amili, tarixi məqamı xatırladaraq dedi: ***"Heydər Əliyevə göstərilən inam Azərbaycan xalqının müdrikliyini bir daha göstərdi. Heydər Əliyev 1993-cü ilin oktyabrında böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Dərhal ciddi islahatlara başlanıldı. Siyasi sahədə islahatlar aparıldı, bütün azadlıqlar təmin edildi. AXC-Müsavat cütlüyü tərəfindən tətbiq edilmiş antidemokratik senzura qaydaları ləğv edildi. Azərbaycan dünyaya açıldı, beynəlxalq təcridə son qoyuldu".***

Bəli, Prezident cənab İlham Əliyevin də dediyi kimi, görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə mühüm məsələlərin həlli istiqamətində mütərəqqi işlərə imza atıldı. Qısa müddətdə ölkənin inkişafı üçün əsas, vacib amil sayılan daxili sabitlik bərqərar edildi, cəbhədə atəşkəsə nail olundu, hüquqi-demokratik dövlət quruculuğu sahəsində potensial baza yaradıldı. Eyni zamanda iqtisadiyyatın dirçəldilməsi yolunda addımlar atıldı, xarici neft şirkətləri ilə bu il 30 illiyi tamam olan "Əsrin müqaviləsi" imzalandı ki, nəticədə, Azərbaycanın iqtisadi inkişafını şərtləndirən irimiqyaslı layihələrin həyata keçirilməsinə başlanıldı. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Bununla da Azərbaycanın bugünkü və gələcək uğurlarının möhkəm təməli qoyuldu. Ümumilikdə, Azərbaycan dünya iqtisadi sistemində öz layiqli yerini tutdu, beynəlxalq təşkilatlarda uğurla təmsil olundu, dünyada etibarlı tərəfdaş kimi tanındı, ikitərəfli və çoxtərəfli münasibətlərini uğurla inkişaf etdirdi. Bununla bərabər, ölkəmizin beynəlxalq təşkilatlarla əlaqəsi təmin olundu, müasir hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiya qəbul edildi. Nəticədə, çox qısa müddətdə müstəqil Azərbaycan özünün sosial, iqtisadi, siyasi və mədəni həyatında ciddi uğurlar qazandı.

***Ulu Öndər ideyalarına sədaqət, güclü siyasi iradə və qətiyyətlə***

***"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"***, – deyən dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri sayılan müstəqil Azərbaycanın taleyini layiqli davamçısına əmanət edib. Xalqımız 2003-cü ildən bəri Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi altında böyük uğurlar qazanır. Dahi liderin parlaq ideyalarını layiqincə reallaşdıran Azərbaycan Prezidenti siyasi fəaliyyətini ölkəmizin heç bir güc mərkəzindən asılı olmayaraq, müstəqil siyasət aparmasına, hər bir sahədə xalqın mənafeyinin qorunmasına həsr edib. Məhz bunun nəticəsidir ki, Azərbaycan ötən dövrdə Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, TANAP, TAP kimi nəhəng layihələrlə bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasına böyük töhfələr verməklə etibarlı ticarət tərəfdaşı statusu qazanıb. Eyni zamanda müstəqil iqtisadi siyasət yürüdən dövlət başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də əhəmiyyətli işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Azərbaycan iqtisadiyyatı artıq tam mənası ilə şaxələndirilmiş iqtisadiyyatdır. Dünyanı bürüyən müharibələrə, qlobal böhrana baxmayaraq, Azərbaycanda sabitlik hökm sürür, uğurlu inkişaf təmin edilib, regionun geosiyasi mənzərəsi tam mənasında ölkəmizin xeyrinə dəyişib. Eyni zamanda uğurlu daxili siyasət nəticəsində son 21 ildə mütəmadi olaraq əməkhaqqılar, pensiyalar artırılıb, yeni iş yerləri yaradılıb, insanların sosial müdafiəsi gücləndirilib, işsizlik problemi aradan qaldırılıb.

Ölkə Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və milli maraqlara cavab verən xarici siyasəti nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilib və ciddi uğurlara imza atıb. Türkiyə, Rusiya, Çin, Pakistan, Özbəkistan və İtaliya kimi siyasi, iqtisadi gücə malik ölkələrlə sıx əlaqələr quran Azərbaycanın 120 dövlətin təmsil olunduğu, BMT-dən sonra ikinci böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına 4 il sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda qüdrətinin əyani göstəricisidir. Ölkə başçısının təşəbbüsü ilə Türk Şurası və Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr olunan Zirvə görüşləri, eləcə də BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi, həmçinin Azərbaycanın Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat (GUAM) və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməsi, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə səmərəli əməkdaşlıq ölkəmizə və dövlətimizin başçısına beynəlxalq arenada olan böyük hörmətin, etimadın nəticəsidir. Ölkəmiz praqmatik düşüncəyə malik dövlət başçısı ilə tarixi uğur modeli formalaşdırıb, 2024-cü ildə COP29 kimi mötəbər tədbirə ev sahibliyi missiyasını yüksək səviyyədə davam etdirən Cənubi Qafqazın lideri gələcəkdə "yaşıl enerji" istehsalı ilə Avropanın enerji təhlükəsizliyinə töhfə vermək əzmindədir.

***Nizami ordudan müzəffər Orduya, müstəqillikdən suverenliyə***

Ulu Öndər Heydər Əliyev yaxşı bilirdi ki, güclü, nizam-intizamlı ordu yaratmadan işğal olunan torpaqlarımızın azadlığını, ərazi bütövlüyümüzü, suverenliyimizi tam təmin etmək mümkün olmayacaq. Elə buna görə də siyasi hakimiyyətə qayıdışından dərhal sonra hərbi quruculuğa əsas prioritet məsələ kimi yanaşdı, ordunun formalaşdırılmasına böyük diqqət ayırdı. Ulu Öndər 1993-cü il oktyabrın 10-da andiçmə mərasimindəki çıxışında da bu barədə dedi: ***"Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir".*** Məhz Ümummilli Liderin qısa zamanda formalaşdırdığı güclü, nizami Azərbaycan Ordusu ötən illər ərzində daha da təkmilləşib qüdrətlənərək Ulu Öndər yoluna sədaqətini ən yüksək səviyyədə göstərdi, Ali Baş Komandanın siyasi iradəsi, sarsılmaz qətiyyəti ilə 30 illik tarixi ədalətsizliyə son qoydu, əzəli torpaqlarımızı işğaldan azad etdi. Ötən ilin 19-20 sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyümüz, suverenliyimiz tam təmin olundu...

Böyük Qayıdış proqramı çərçivəsində bu gün tarixi torpaqlarımıza həyat qayıdır, soydaşlarımız üçün gözəl, əlverişli yaşayış, iş şəraiti yaradılır, yurd yerlərimizə köç prosesi uğurla reallaşdırılır. Təhsil, mədəni ənənələr bərpa olunur, turizm potensialı inkişaf etdirilir, bölgələrin, təbii sərvətlərin əvvəlki şöhrəti özünə qaytarılır. Qarabağın tacı Şuşada, Xocalıda, Xankəndidə və azad olunan bütün torpaqlarda müstəqilliyimizin rəmzi sayılan üçrəngli bayrağımız dalğalanır. Xalqımız Ulu Öndərin, şəhidlərin əziz xatirəsinə ehtiramla şəhərlərimizin azad edilmə tarixlərini, Zəfər, Dövlət Suverenliyi günlərini böyük qürurla, fəxrlə qeyd edir. Bir sözlə, 1993-cü il oktyabrın 3-dən başlanan müstəqil siyasət yolu bu gün ölkəmizi qalib, bütöv, beynəlxalq miqyasda müstəqil söz, əsl nüfuz sahibi edib, Azərbaycanın müstəqil ölkə kimi varlığının əsas səbəbkarı olan Ümummilli Liderimiz Heydər Əliyevin arzuları reallaşıb. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi. Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!" Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı. Bu gün Ulu Öndərin əziz xatirəsinə hörmət edərək biz, bax, bu Zəfərə, bu Qələbəyə hər zaman layiq olmalıyıq, hər birimiz, hər bir yerdə. Bu Zəfər, eyni zamanda, hər birimizin üzərinə əlavə məsuliyyət qoyur. Biz bu Zəfərə layiq olmalıyıq. Əminəm ki, belə də olacaq".***

✍ **Nail ƏSGƏROV**

**Prezident İlham ƏLİYEV:**

***"Heydər Əliyev bütün dövrlərdə bütün sınaqlardan şərəflə çıxmışdır. Bütün mübarizələrdə – istər daxili, istər beynəlxalq müstəvidə, bütün dövrlərdə doğma Vətənini müdafiə etmişdir və qələbə qazanmışdır. Əgər biz tarixə bir daha nəzər salsaq, görərik ki, Heydər Əliyevsiz dövrlər Azərbaycan üçün böyük fəlakətlərlə nəticələndi. Yaşadığımız indiki dövr Azərbaycan üçün uğurludur və bunun da tək səbəbi var. Çünki bu gün Heydər Əliyev siyasəti yaşayır, onun ideyaları yaşayır, onun qurduğu müstəqil dövlət yaşayır və güclənir."***



# Cəbrayıl

## Zəfərin qələbə soraqlı ilk şəhəri

*(əvvəli 1-ci səhifədə)*

Şanlı Vətən savaşı 8 gün idi davam edirdi. Hər kəsin ürəyi cəbhədə döyünürdü. Hər evi səngər, hər sakini əsgər olmuşdu Azərbaycanın. Yollara dikilən baxışlara əbədi həsrət çöksə də, dilimizdə qardaş kəlməsi donsa da, bir təsəllimiz var idi – torpaqlarımız geri qayıdır. Biz illərdir, alnımıza yazılan məzlum xalq sözündən azad olurduq. İgid oğullarımız köksündə Azərbaycan Bayrağını, ürəyində Vətən sevgisini daşıyaraq illərdir, düşmənin keçilməz dediyi səddi iki saata yarmışdı. Düşmən elə ilk gündən vəlvələyə düşüb cəhənnəm olurdu torpağımızdan. İrəliyə atılan oğullar Suqovuşana Azərbaycan Bayrağını sancmışdı həmin günlərdə. Hamı həyəcanla Ali Baş Komandanın xalqa müraciətini gözləyirdi. Və həmin an gələndə kimliyindən tutduğu vəzifədən asılı olmayaraq, hər kəs televiziya qarşısına keçdi. Tarix 4 oktyabr 2020-ci il. Bu, ölkə başçısının xalqa ikinci müraciəti idi Vətən müharibəsi başlayandan bu yana. Müzəffər duruşlu Komandan sözə başlayandan qulaq kəsilmişdi hər kəs, əmin idik sonda qələbə xəbərini eşidəcəyimizə. Və həmin an, Cəbrayıl şəhəri deyildiyi an sevinc səsimiz iş otaqlarının, evlərin tavanını aşıb göylərə yüksəldi. İşğaldan azad edilən ilk şəhər oldu Cəbrayıl. Ali Baş Komandan həmin günü çıxışında deyirdi : ***"Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm. Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!"***

Bax elə həmin gün zəfər şəhəri adını aldı Cəbrayıl. Azərbaycan əsgəri üçrəngli, ay-ulduzlu bayrağımızı dalğalandırdı ən yüksək zirvədə. Qarabağın bağlı qapılarının açarı sayılan Cəbrayıl igid əsgərlərimizin şücaəti ilə rahat nəfəs almağa başladı. Onun sakinlərinin adının yanına yazılan məcburi köçkün sözləri tarixə qovuşdu. 27 ildir, mücrüdə saxlanılan artıq paslamış açarlar bağlı qapıları açmağa tələsdi. İllərdir, Vətən həsrəti çəkən insanların üryindəki sevinc göz yaşlarına dönüb yanağına süzüldü. Tarixi ədalət bərpa olundu. Artıq düşmən anlayırdı ki, qarşılarında 90-cı illərdəki müstəqilliyini yeni qazanmış nizamlı ordusu olmayan Azərbaycan deyil. Artıq iqtisadiyyatı güclü, ordusu dünyanın ən güclü 50 ordusundan biri, xalqı isə öz dövlətinin və Ali Baş Komandanın yanında hər an döyüşə hazır olan, generalı, polkovnikləri, mayorları səngərdə öz əsgəri ilə döyüşüb qəhrəmancasına şəhid olan, dosta qürur, düşmənə ölüm gətirən, tarixi öz qanı, qəhrəmanlığı ilə yazan Azərbaycan əsgəri var. Cəbrayılın azad edilməsi gələcək qələbələrlə müjdələdi xalqımızı. Və sonrakı günlərdə Xudafərin körpüsü azad edildi. Azərbaycan əsgəri günlərdir, sinəsində gəzdirdiyi al qanı ilə boyanan bayrağı Xudafərin körpüsünə sancmaqla düşmənlə bərabər iki yüz il öncə Azərbaycanı ikiyə bölənlərə də dərs keçdi. Həmin gün Cənubi Azərbaycanda yaşayan soydaşlarımız da Arazın sahilinə can atıb Azərbaycan Ordusuna dəstək şüarları səsləndirdilər. Xudafərinə sancılan bayraq həm də tariximizin azad oluşu idi. Cəsur Azərbaycan əsgəri torpaqlarımızı azad edib hər qarışını öz qanı ilə yoğurdu. Şanlı Vətən savaşındakı qələbədən sonra azad edilmiş ərazilərə səfər edən Müzəffər Ali Baş Komandanın ilk ziyarət etdiyi yerlərdən biri də Xudafərin körpüsü oldu. Arazın sərin suyunu ovuclarına alıb azad Vətən torpağını seyr etdi. Düşmənin xarabaya, tövləyə çevirdiyi məscidləri, Cəbrayıl şəhərini gəzdikcə cənnətə dönəcək bu yerlər deyimi yadına düşdü hər kəsin. Cocuq Mərcanlı canlandı hər kəsin xəyalında. Aprel döyüşlərində işğaldan azad ediləndə xarabanı xatırladan Cocuq Mərcanlının yenidən qurulmağı yada düşdü. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsın. Qəsəbədəki məsciddən azan səsi göylərə ucaldı. Qəsəbənin açılışında iştirak edən ölkə başçısının dediyi: ***"Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq"*** sözləri öz yerini tapdı.



Cəbrayılın azad edilməsindən ötən 4 il ərzində bir neçə dəfə burada səfərdə olan ölkə başçısı hər gəlişində müxtəlif obyektlərin təməlqoyma mərasimlərində iştirak edib. Ötən gün Cəbrayıl rayonunda səfərdə olan ölkə başçısı Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olub, Cəbrayıl şəhərində 960 şagird yerlik tam orta məktəbin açılışında, "Azərsun Holdinq" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin, Soltanlı kəndində "Hicaz quşçuluq" müəssisəsinin, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında bir neçə təməlqoyma mərasimində iştirak edib.

Böyük qələbədən sonra Prezident cənab İlham Əliyevin tapşırığına uyğun olaraq işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən Cəbrayıl şəhəri yenidən quruldu.

Artıq bir neçə aydır, Şuşaya, Laçına köç qayıdır xəbərləri arasında Cəbrayıla ilk köç qayıtdı xəbəri də yer almağa başladı. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət ilk köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan Cəbrayıl şəhərinə yola salındı. Artıq Cəbrayıl şəhərində çırağımız yanır, Azərbaycanın gələcəyi olan uşaqların gülüş səsləri eşidilir. Qədim Azərbaycan torpağı igid oğullarının rəşadəti sayəsində rahat nəfəs alır, gülüstana çevrilir.

✍ Ramiyə
ƏKBƏROVA



# "Naxçıvan müqaviləsinin 15-ci ildönümündə Türk Dövlətləri Təşkilatı" mövzusunda tədbir keçirilib



Oktyabrın 3-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində "Naxçıvan müqaviləsinin 15-ci ildönümündə Türk Dövlətləri Təşkilatı" mövzusunda tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyublar. Heydər Əliyev Muzeyində olan qonaqlar Ulu Öndərin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olub, muzeyin qarşısında xatirə fotosu çəkdiriblər.




Naxçıvan Dövlət Universitetində davam edən tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfrans iştirakçılarını Türk dünyası üçün strateji əhəmiyyət kəsb edən, Şərqlə Qərbin qovşağında, böyük İpək Yolunun üzərində yerləşən Naxçıvanda salamlayaraq bildirib ki, müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu siyasi-ideoloji fəaliyyətin mühüm istiqamətlərindən biri də Türk dünyasının birliyidir. Hələ Ulu Öndərimiz 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə bu istiqamətdə qərarlar qəbul edib, qardaş Türkiyə ilə əlaqələrin qurulmasına xüsusi önəm verib. Türkdilli dövlətlərin institusional strukturunun formalaşması təşəbbüsünün müəllifi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, bu təşəbbüsün reallığa çevrildiyi yer isə Naxçıvan olub. 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşünün Naxçıvanda keçirilməsi və "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"nin imzalanması mühüm tarixi-siyasi əhəmiyyətə malikdir. Ötən dövrdə türkdilli dövlətlər arasında əməkdaşlığın müxtəlif formalarda inkişafına nail olunub, bütövlükdə, Türk dünyası dövlətləri arasında inteqrasiya sürətləndirilib.

44 günlük Vətən müharibəsində tarixi Qələbəmizin və bunun ən mühüm nəticələrindən biri olan Zəngəzur dəhlizinin açılması perspektivində görülən işlərin həm də Türk dünyasının coğrafi birliyini təmin etmək yolunda atılmış ikinci addım kimi böyük siyasi-ideoloji əhəmiyyətinə toxunan Fuad Nəcəfli "Naxçıvan Müqaviləsinin 15-ci ildönümündə Türk Dövlətləri Təşkilatı" mövzusunda keçirilən tədbirə mühüm əhəmiyyət verdiyini diqqətə çatdırıb, təşkilatçılara təşəkkürünü bildirib.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi idarə heyətinin sədri Fərid Şəfiyev çıxışında ortaq Türk dünyası ideyasının 19-cu



əsrdə formalaşdığını, bu ideya ətrafında praktiki addımların isə 1990-cı illərdə Ulu Öndər Heydər Əliyev tərəfindən atıldığını diqqətə çatdırıb. Bildirib ki, həmin illərdə zirvə görüşü təşkil olunub, Türk Şurası və nəhayət, Türk Dövlətləri Təşkilatı yaradılıb. Hazırda təşkilatın İstanbulda baş qərargahı, Astana, Bakı, Daşkənd və digər şəhərlərdə təşkilata bağlı olan qurumlar fəaliyyət göstərir. Bu fəaliyyət bundan sonra daha da genişlənəcək. Fərid Şəfiyev qeyd edib ki, hazırda dünyada, o cümlədən Şərqi Avropa və Yaxın Şərqdə çox mürəkkəb geosiyasi hadisələr baş verir. Bütün bunlar beynəlxalq təhlükəsizlik və iqtisadi baxımdan daha sıx əməkdaşlığı zəruri edir. Bu istiqamətdə artıq addımlar atılır, orta dəhliz layihəsi həyata keçirilir, intellektual potensial güclənir, türk akademiyası fəaliyyət göstərir. Artıq ortaq türk əlifbası yaradılıb və ortaq türk dili layihəsi üzərində iş gedir.







Əsrimizi türk əsri kimi qiymətləndirən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, dövlətlərimiz buna addım-addım yaxınlaşır. Ölkə başçıları səviyyəsində bu yaxınlaşma üçün çox güclü iradə var. Bu birliyin Naxçıvanda əsası qoyulmuş sazişlə inkişaf etməsi qürurverici və önəmlidir. Çünki Naxçıvan min illərdir, türkçülüyün simvollarını daşıyan mərkəz rolunu oynayıb. Vaxtilə Atabəylərin, Səlcuqlar imperiyasının mərkəz şəhərlərindən olan Naxçıvan geostrateji mövqeyi, şəhərsalma mədəniyyəti, ənənələri ilə həmişə Türk dünyası üçün maraqlı bir region olub.

Türk Dövlətləri Təşkilatı baş katibinin nümayəndəsi Muradcan Mustafayev Naxçıvan müqaviləsinin 15 illiyi münasibətilə təbrikləri çatdırıb, bu tədbirin türk coğrafiyasında əsas körpü rolunu oynayan Naxçıvanda keçirilməsinin xüsusi əhəmiyyətinə toxunub. Qeyd edib ki, strateji baxımdan Şərqlə Qərbin, Şimalla Cənubun qovşağında yerləşən, 170 milyona yaxın əhalisi olan türk regionu qarşılıqlı ticarət və iqtisadi əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar açır. 2023-cü ildə Türk Dövlətləri Təşkilatı iqtisadiyyatının ÜDM-i əvvəlki illə müqayisədə 18 faiz artaraq, təxminən, 2 trilyon ABŞ dollarına çatıb. Həmçinin üzv dövlətlərinin ərazisindən keçən Trans-Xəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizinin əhəmiyyəti artıb. Dəhliz Şimal dəhlizindən 2 min kilometr qısa olduğundan dəmir yolu tranzit müddətini 7-8 gün azaldır.

Tədbirdə Naxçıvan televiziyasının hazırladığı türk dövlətləri birliyinin inkişafını və əhəmiyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Sonra təşkilatçılar tərəfindən səlahiyyətli nümayəndə Fuad Nəcəfliyə və digər iştirakçılara simvolik hədiyyələr təqdim olunub, xatirə fotosu çəkdirilib.

Tədbir "Türk Dövlətləri Təşkilatı coğrafiyasında geosiyasi dəyişikliklər və Türk Dövlətləri Təşkilatı", "Təhlükəsizlik sahəsində əməkdaşlıq", "İqtisadi və ticarət əlaqələri" və "Enerji və nəqliyyat sahəsində əməkdaşlıq" mövzularında panel iclasları ilə davam edib.



# Naxçıvan Muxtar Respublikasında "Regional medianın inkişafı" layihəsi çərçivəsində tədbir keçirilib



4 oktyabr 2024-cü il tarixdə Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasında "Regional medianın inkişafı" layihəsi çərçivəsində tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, abidənin önünə güllər düzülüb, Ulu Öndərin xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbiri giriş nitqi ilə açan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli vurğulayıb ki, Naxçıvan Muxtar Respublikasında media subyektləri və nümayəndələrinin müasir media trendlərinə uyğun formada fəaliyyət göstərməsi, bu sahədəki mövcud çağdaş yanaşmaların tətbiq edilməsi üçün geniş şərait yaradılıb. O istər maddi-texniki baza, istərsə də jurnalist kadrların hazırlanması baxımından bu gün Naxçıvanda sağlam mətbuat strukturunun formalaşdığını, modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsinin Naxçıvan mediası üçün başlıca amillər sırasında yer aldığını diqqətə çatdırıb.







Açılış nitqi ilə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, Agentlik media sahəsində mütəxəssislər hazırlanması, audiovizual, çap, onlayn media subyektlərinin və informasiya agentliklərinin, habelə jurnalistlərin fəaliyyətinin stimullaşdırılması istiqamətində çoxşaxəli tədbirlər reallaşdırır. O, region mediası üçün dayanıqlı inkişaf mexanizmlərinin formalaşdırılması, media subyektlərinin cari vəziyyətinin qiymətləndirilməsi və müəyyənləşdirilən ehtiyaclar əsasında inkişaf proqramlarının təşkili məqsədilə icra olunan "Regional Medianın İnkişafı" layihəsinin Naxçıvanda ilk dəfə olaraq həyata keçirildiyinə diqqət çəkərək Naxçıvan Muxtar Respublikasının çoxillik tarixi ənənələrə malik media subyektlərinin müasir trendlərə, innovativ tətbiqlərə qoşulmasının, beynəlxalq səviyyədə tərəqqisinin prioritetlərdən olduğunu vurğulayıb.

Daha sonra Audiovizual Şuranın üzvü Bəxtiyar Balakişiyev çıxış edərək region mediasında yeniliklərin tətbiqi məqsədilə görülən işlərin, ümumilikdə, ölkə mediasının

Ardı 5-ci səhifədə




inkişafına təsiri barədə danışıb. O bu addımların regionlarda informasiya mühitinin zənginləşməsinə, media qurumlarının peşəkarlıq səviyyəsinin yüksəlməsinə və daha etibarlı məlumat axınının təmin edilməsinə səbəb olduğunu bildirib.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid isə regional medianın inkişafı istiqamətində MEDİA Agentliyinin və Mətbuat Şurasının birgə fəaliyyətinin əhəmiyyətini qeyd edərək region mediasının müasir standartlara uyğun infrastrukturunun formalaşmasının, əhalinin informasiyaya əlçatanlığının təmin edilməsi və ictimai-siyasi, mədəni-tarixi cəhətdən maarifləndirilməsinin, habelə sözügedən sahədə uzunmüddətli davamlı inkişafın təşviqinin vacibliyini diqqətə çatdırıb.

Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərova Naxçıvan mediasının ümumi mənzərəsi və inkişaf tendensiyası, yerli media subyektlərinin və nümayəndələrinin fəaliyyəti, eyni zamanda onların ehtiyaclarının müəyyənləşdirilməsi ilə bağlı aparılan sorğuların nəticələrinə dair təqdimatla çıxış edib.

Sonra keçirilən sorğuların nəticələri ilə bağlı Naxçıvan media nümayəndələri ilə müzakirələr aparılıb, onları maraqlandıran məsələlərə aydınlıq gətirilib.

## Naxçıvanda "KOB Fest" fəaliyyətə başlayıb









Oktyabrın 4-də KOBİA-nın təşkilatçılığı ilə Naxçıvan şəhərindəki "Əcəmi seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksində "KOB Fest"in açılış mərasimi keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli açılış mərasimində çıxış edərək bildirib ki, dövlət başçısının tapşırıqlarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasında özəl sektora ciddi qayğı göstərilir. Xüsusilə də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda bu məsələ ilə bağlı fəaliyyət istiqamətləri müəyyənləşib. Dövlət Proqramında əlverişli biznes mühitinin yaradılması, mikro, kiçik və orta biznesin dəstəklənməsi istiqamətində fəaliyyətin genişləndirilməsi, KOB dostu ofislərinin yaradılması, sahibkarlara güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiq olunması nəzərdə tutulur. Həmçinin Naxçıvan Muxtar Respublikasının bütün ərazisində gömrük rüsum güzəşti nəzərdə tutan xüsusi gömrük rejiminin yaradılması və ixraca logistik dəstək verilməsi istiqamətində də işlər aparılır.

Fuad Nəcəfli qeyd edib ki, 2024-cü ilin yanvar-avqust aylarında muxtar respublikada fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatları tərəfindən sahibkarlığın inkişafı məqsədilə 52 milyon manatdan artıq kredit verilib. Bunun 43 milyon manatdan çoxu KOB subyektlərinin inkişafına yönəldilib. Bu gün Naxçıvan şəhərində təşkil olunan "KOB Fest" də bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Səlahiyyətli nümayəndə əminliklə ifadə edib ki, festival KOB subyektlərinə istehsal etdiyi məhsul və xidmətlərin tanıdılması və satış imkanlarının artırılması, ən əsası isə kiçik sahibkarlığın inkişafına dəstək verilməsi işində yeni hədəflər müəyyənləşdirəcəkdir. Dövlət özəl sektorun inkişafı üçün üzərinə düşən öhdəlikləri yerinə yetirir. Sahibkarlar da bu işə dəstək verməli, dövlət-özəl tərəfdaşlığı çərçivəsində mikro, kiçik və orta biznes inkişaf etməlidir. Fuad Nəcəfli bu yolda hər kəsə uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini icra edən Abbas İsmayılov qeyd edib ki, hazırda muxtar respublikanın bütün şəhər və rayonlarını əhatə edən KOB dostları fəaliyyət göstərir. Şəffaflaşma məqsədilə Naxçıvan Muxtar Respublikasında 2023-cü il və 2024-cü ilin cari dövründə yumşaq keçid tətbiq edilib, vergi nəzarəti tədbirləri minimuma endirilib. 1 oktyabr 2024-cü il tarixə muxtar respublikada 19729 mikro, 309 kiçik və 91 orta sahibkarlıq subyekti olmaqla, ümumilikdə, 20129 aktiv KOB subyekti fəaliyyət göstərir. Bu da ilin əvvəli ilə müqayisədə 57,3 faiz çoxdur. İqtisadiyyatın müxtəlif sahələrində yeni KOB subyektlərinin yaranması və mövcud KOB-ların fəaliyyətinin genişlənməsi, özəlləşdirmə proseslərində yaxından iştirak etməsi daim stimullaşdırılır. Belə ki, cari ilin 9 ayında özəlləşdirilən dövlət əmlaklarının 93,8 faizi KOB subyektləri tərəfindən həyata keçirilib, verilən lisenziyaların 97,4 faizi KOB subyektlərinin payına düşüb. Həmçinin maliyyə dəstəyindən faydalananların əksəriyyəti mikro, kiçik və orta sahibkarlıq subyektləri olub.



KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Naxçıvanda ilk dəfə "KOB Fest"in keçirilməsini əlamətdar hadisə kimi dəyərləndirərək qeyd edib ki, məqsəd sahibkarların məhsullarını geniş kütləyə təqdim etməsinə şərait yaratmaqdır. Vurğulanıb ki, Naxçıvanda sahibkarlıq fəaliyyəti üçün tam münbit şərait vardır. Artıq KOBİA-nın dəstək və xidmətləri Naxçıvan sahibkarları üçün daha əlçatandır. Naxçıvanda KOB İnkişaf Mərkəzi və KOB dostları fəaliyyət göstərir. Naxçıvan sahibkarları KOB dostları ilə aktiv əməkdaşlıq edərək fəaliyyət imkanlarını daha da genişləndirirlər. Bu gün keçirilən festival da məhz bu imkanların nəticəsidir.

Sonra "KOB Fest"in sərgi-satış yarmarkası ilə tanışlıq olub.

Məlumat verilib ki, yarmarkada 70-dən artıq mikro və kiçik sahibkarlıq subyektinin məhsul və xidmətləri nümayiş olunur. Festivalda muxtar respublika ilə yanaşı, ölkəmizin digər regionlarında fəaliyyət göstərən 20-dən artıq sahibkarlıq subyekti də iştirak edir. Burada qida və qeyri-qida məhsullarının, sənətkarların və yaradıcı şəxslərin əl işlərinin satışı həyata keçirilir.

"KOB Fest" çərçivəsində bədii-əyləncəli proqram da təşkil olunub.



## Ali Məclisin payız sessiyası fəaliyyətə başlayıb





Sentyabrın 30-da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının ilk iclası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov iclası açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

İclasın gündəliyinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik işləri planının təsdiqi, Ali Məclisin komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi, Ali Məclisin İntizam komissiyasının yaradılması məsələləri daxil edilib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ ilə bağlı Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, Ali Məclisin fəaliyyəti qanunvericilik işləri planı əsasında qurulur. Daxili Nizamnaməyə əsasən növbəti sessiyanın ilk iclasında qanunvericilik işləri planı təsdiq olunmalı və Ali Məclisin iclasları bu plana uyğun keçirilməlidir.

Sonra "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planı haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.

İclasda növbəti məsələ – Ali Məclisin komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi ilə əlaqədar komitələrin təklif olunan tərkibi oxunub, qərar səsə qoyularaq qəbul edilib.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov gündəlikdə duran sonuncu məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqında olduğunu bildirib.

Komissiyanın təklif olunan tərkibi oxunub, qərar səsə qoyularaq qəbul edilib.

Bununla da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının ilk iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ali Məclis sədrinin birinci müavini "Şərq qapısı" qəzetinin fəaliyyəti ilə tanış olub





Oktyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov "Şərq qapısı" qəzeti redaksiyasında olub, qəzetin fəaliyyəti ilə yaxından maraqlanıb. "Şərq qapısı" qəzetinin baş redaktoru Sara Əzimova 103 yaşlı mətbu orqanın müasir dövrün çağırışlarına uyğun qurulan iş prinsipi haqqında məlumat verib, maddi-texniki bazanın gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Qeyd olunub ki, qəzetin yaradıcı heyəti oxucu maraqlarını nəzərə alaraq günün nəbzini tutan yazılar hazırlayır, ölkəmizin, o cümlədən muxtar respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələrin geniş oxucu kütləsinə çatdırılması üçün var qüvvəsi ilə çalışır. Kollektiv həftəlik qəzet nömrəsinin buraxılışı ilə yanaşı, sosial şəbəkə hesabları üzərindən də öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmaq üçün səy göstərir.

Görüş zamanı redaksiyanın ən yeni avadanlıqlarla təchizatı ilə bağlı geniş fikir mübadiləsi aparılıb, təkliflər səsləndirilib.

# Şahbuz və Babək rayonlarında məktəbdənkənar təhsil müəssisələri üçün inşa olunan yeni binalar kollektivlərin istifadəsinə verilib



Oktyabrın 2-də Şahbuz və Babək rayonlarında məktəbdənkənar təhsil müəssisələri üçün inşa olunan yeni binalar kollektivlərin istifadəsinə verilib. Açılış tədbirində Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov iştirak edib.





Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov məlumat verərək bildirib ki, yeni inşa olunan binalarda Şahbuz və Babək rayonlarının Uşaq-Gənclər Yaradıcılıq, Texniki Yaradıcılıq və Turist Diyarşünaslıq mərkəzləri fəaliyyət göstərəcəkdir. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan inzibati binaların hər birində, ümumilikdə, 15 məşğələ otağı,1 sərgi salonu,1 bufet və 7 təsərrüfat otağı vardır.

Qeyd olunub ki, Uşaq-Gənclər Yaradıcılıq mərkəzləri üçün ayrılan mərtəbələrdə STEAM-robotexnika, qum və ebru sənəti, bədii dəri və şüşə üzərində işləmə, memarlıq-dizayn-kompüter mühəndisliyi, bədii qiraət-vokal, rəsm dərnəkləri üçün məşğələ otaqları, yaradıcılıq studiyası yaradılıb. Texniki Yaradıcılıq mərkəzləri üçün ayrılan mərtəbədə ağac üzərində oyma-yandırma, toxuculuq-bədii tikmə dərnəkləri üçün məşğələ otaqları və sərgi salonu pedaqoji kollektiv və dərnək üzvlərinin istifadəsinə verilib. Diyarşünaslıq mərkəzləri üçün ayrılan mərtəbədə isə rəqs və gimnastika zalı, cihazların saxlanılması və soyunub-geyinmə otaqları yerləşir.

Elxan Nəcəfov vurğulamışdır ki, ümumilikdə, Şahbuz Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi üzrə 35 qrup, 22 dərnək rəhbəri, 255 dərnək üzvü, Texniki Yaradıcılıq Mərkəzi üzrə 20 qrup, 11 dərnək rəhbəri, 168 dərnək üzvü fəaliyyət göstərəcəkdir. Həmçinin Diyarşünaslıq Mərkəzi üzrə 20 qrup,14 dərnək rəhbəri və 198 dərnək üzvünün iştirakı ilə tədrisə başlanılacaq.

Bildirilmişdir ki, Babək Rayon Texniki Yaradıcılıq Mərkəzi üzrə 23 qrup, 13 dərnək rəhbəri, 208 dərnək üzvü, Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi üzrə 43 qrup, 23 dərnək rəhbəri, 356 dərnək üzvü, həmçinin Turist Diyarşünaslıq Mərkəzi üzrə 21 qrup, 14 dərnək rəhbəri və 200 dərnək üzvünün iştirakı ilə tədris həyata keçiriləcəkdir.





Məktəbdənkənar təhsil müəssisələri ilə tanışlıq zamanı bir sıra tapşırıqlar verən Baş nazir Ceyhun Cəlilov bildirib ki, sağlamlıq imkanları məhdud uşaqların dərnəklərə cəlbinə diqqət artırılmalıdır. Müəssisə öz fəaliyyət istiqamətini şagirdlərin asudə vaxtlarını keçirməklə yanaşı, onların gələcək həyatlarında peşə seçimlərinə yiyələnməsinə istiqamətləndirilməlidir. Milli-mənəvi dəyərlərimizi özündə əks etdirən dərnəklərimizə təbliğat gücləndirilməli, şagird cəlbinə və dərnəklərin sayının artırılmasına nail olunmalıdır, – deyən Ceyhun Cəlilov dərnəklərdə şagirdlər tərəfindən hazırlanmış yekun satış sərgisinin təşkil olunmasını məqsədəuyğun hesab edib. Baş nazir muxtar respublikaya gələn qonaqlara təqdim olunan hədiyyələr arasında şagirdlərin də əl işlərindən seçilməsinə üstünlük verilməsinin vacibliyini diqqətə çatdırıb.

Qeyd edək ki, binalardakı otaqların hər biri təyinatı üzrə mebel dəstləri, həmçinin dərnək məşğələlərinin tədris olunması üçün lazımi avadanlıqlarla təmin olunmuşdur. Mərkəzlərin yerləşdiyi inzibati binaların hər birində internetə çıxışı təmin edilən 14 kompüter və 3 elektron lövhə quraşdırılıb. Binaların həyətində qazanxanalar tikilib, yaşıllıq sahəsi yaradılıb.

Bir sözlə, istifadəyə verilmiş təhsil müəssisələrində uşaq və yeniyetmələrin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmələri, incəsənət sahəsində biliklərə yiyələnmələri üçün hərtərəfli şərait yaradılıb.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

# Türk birliyinin Naxçıvandan başlanan inkişaf yolu

## *Prezident İlham Əliyevin qətiyyəti nəticəsində ən ali zirvəyə yüksələn əməkdaşlıq*



Ötən əsrin sonlarında baş verən geosiyasi dəyişikliklər nəticəsində dünyanın siyasi xəritəsində yeni müstəqil türk dövlətlərinin yaranması və qloballaşan dünyanın çağırışları ilə üzləşməsi türk xalqlarının daha çox birlikdə hərəkət etməsi zərurətini yaratmışdır.

Bu birliyin təməlini formalaşdıran Ulu Öndər 1993-cü ilin iyunun 15-də Ali Sovetdə proqram xarakterli çıxışında xarici siyasətin önəmli istiqaməti kimi türkdilli dövlətlərlə işbirliyini xüsusi vurğulamışdı: ***"Xarici siyasət sahəsində görüləsi işlər çoxdur. Birinci növbədə, yaxın qonşularımızla sıx münasibətlər yaradılmalıdır. Bu baxımdan Türkiyə ilə əlaqələr, şübhəsiz ki, önəmli yer tutur. Eyni zamanda keçmiş sovetlər ittifaqına daxil olan türkdilli ölkələrlə əlaqələrimiz sürətlə inkişaf etməlidir. Bizim bu dövlətlərlə əlaqələrimiz uzun illər çox yaxın olub. Bu əlaqələri qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır".***

Bunu "Azərbaycan" qəzetinə açıqlamasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Arzu Abdullayev bildirib. O qeyd edib ki, Prezident İlham Əliyevin türk dövlətlərinin birliyində, əməkdaşlığında özünəməxsus və aparıcı rolu vardır: "Cənab Prezidentin şəxsi səyləri nəticəsində bu gün türk birliyi ən yüksək əməkdaşlıq zirvəsinə qalxıb, dünyada baş verən bütün qlobal siyasi proseslərə, eləcə də təbii böhranlara qarşı türk dövlətləri birgə mübarizə aparır.

Bu danılmaz faktdır ki, cənab İlham Əliyev türk dövlətləri ilə əlaqələrin daha böyük coğrafi arealda genişləndirilməsinə çalışmaqla, bütövlükdə, Türk dünyasının qəbul etdiyi, hesablaşdığı, rəğbət bəslədiyi birləşdirici lider statusunda çıxış edir. Bu əzmkar fəaliyyət milli-dini yaxınlıq amili və təəssübkeşlik prinsiplərindən bir qədər də irəliyə gedərək, bütövlükdə, türk xalqlarının dünya siyasətindəki tarixi yerini, beynəlxalq proseslərə təsir imkanlarını və nüfuzunu təmin etməyə yönəlmiş mühüm və tarixi missiyadır".

Arzu Abdullayev vurğulayıb ki, Azərbaycanın Türk dünyasında nə qədər inamlı və əvəzsiz körpü rolu oynadığının bariz nümunələrindən biri türk dövlətləri başçılarının 3 oktyabr 2009-cu ildə Azərbaycanın qədim şəhərlərindən biri olan Naxçıvanda keçirilən Zirvə görüşündə Naxçıvan Sazişinə əsasən Türk Şurasının yaradılmasıdır. Ortaq tarix, ortaq dil, ortaq kimlik və ortaq mədəniyyət kimi dörd əsas sütun üzərində qurulmuş olan Türk Şurası üzv dövlətlər arasında iqtisadiyyat, elm, təhsil, nəqliyyat, gömrük, turizm və digər müxtəlif sahələr kimi mövcud ikitərəfli əməkdaşlıq sahələrini genişləndirərək çoxtərəfli əlaqələrə xidmət edir. Naxçıvanda keçirilən IX Zirvə Toplantısında Prezident İlham Əliyev demişdir: ***"...Naxçıvanın Türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyərlərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ sovet ittifaqı zamanı Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda görülən işlər, bütövlükdə, Azərbaycanın müstəqilliyi üçün çox böyük əhəmiyyət daşıyırdı..."***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini bildirib ki, Türk Şurasının Naxçıvandan başlanan inkişaf yolunda dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan təşkilatın inkişafına, onun sıralarının genişlənməsinə, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə və əlaqələrinin artmasına önəmli töhfələr verib: "Azərbaycan 2019-2021-ci illərdə Türk Şurasına uğurla sədrlik edib, Müzəffər Prezident İlham Əliyev təşkilatın fəaliyyətinin gücləndirilməsi, türkdilli ölkələr və xalqlar arasında dostluğun, qardaşlığın və əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində ciddi səylər göstərib. Türk Şurasına sədrlik ölkəmiz üçün olduqca tarixi bir dövrə təsadüf edib, Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü gerçəkləşdirib. Ölkəmizin tarixi Zəfəri Türk dünyasında da birliyin və həmrəyliyin daha da gücləndirilməsində mühüm rol oynayıb. Hazırda da regionda həyata keçirilən beynəlxalq və regional layihələr türkdilli dövlətlər arasında bağlılığa öz töhfəsini verməkdədir".

Bu tarixi reallıqdır ki, türk dövlətlərinin institusional strukturunun formalaşması təşəbbüsü Prezident İlham Əliyevdən gəlib və onun təməli qədim Azərbaycan torpağı olan Naxçıvanda qoyulub.

Azərbaycanın milli maraqlarının təmin edilməsi məqsədilə həyata keçirdiyi prinsipial, ardıcıl və qətiyyətli siyasətin dünya miqyasında və türk xalqları tərəfindən yüksək qiymətləndirildiyini deyən Arzu Abdullayev onu da qeyd edib ki, məhz dövlətimizin başçısının diplomatik səyləri və məharəti nəticəsində Azərbaycanın haqq səsi dünyaya çatdırıldı, erməni yalanları beynəlxalq miqyasda ifşa olundu, dünyanın aparıcı beynəlxalq təşkilatları tərəfindən ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələr qəbul edildi, ayrı-ayrı dövlətlər, dünya səviyyəsində tanınmış ictimai-siyasi xadimlər, nüfuzlu şəxsiyyətlər tərəfindən Ermənistanın işğalçılıq siyasəti pislənildi və Azərbaycanın haqq işinə dəstək verildi: "Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik siyasət nəticəsində Azərbaycanda güclü iqtisadi potensial formalaşdırıldı, qüdrətli, qarşısında duran istənilən vəzifəni yerinə yetirməyi bacaran müzəffər Ordu yaradıldı. Dövlətimizin başçısının sərkərdəlik və diplomatik məharəti sayəsində Azərbaycan İkinci Qarabağ müharibəsində Ermənistanı diz çökməyə, kapitulyasiya aktını imzalamağa məcbur etdi, Azərbaycan Ordusu tarixi ərazilərimizi işğaldan azad edərək Zəfər qazandı. Bu Azərbaycanın uğuru olmaqla bərabər, eyni zamanda türkdilli dövlətlər tərəfindən ölkəmizin haqq səsinin qəbul olunması və dəstəklənməsinə verdikləri bir töhfə və həmrəylik kimi də qəbul edilməlidir".

"Prezident İlham Əliyevin təşəbbüsü ilə 2024-cü il iyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi və həmin tədbirdə Qarabağ Bəyannaməsinin imzalanması türk dövlətlərinin birliyinin möhkəmləndirilməsinin Azərbaycanın xarici siyasətində prioritet olduğunu bir daha nümayiş etdirdi", – deyən Arzu Abdullayev qeyd edib ki, bu gün Türk dünyasının birliyinin güclənməsi və Naxçıvandan başlayan bu hərəkatın genişlənməsi sevindirici haldır. Dünyada baş verən geosiyasi dəyişikliklər fonunda türk dövlətlərinin birliyinin gücləndirilməsinin vacibliyi özünü daha aydın şəkildə büruzə verir ki, bu da regional və beynəlxalq sabitlik, təhlükəsizlik və əməkdaşlıq kontekstində müstəsna əhəmiyyət kəsb edir.

**Rəşad CƏFƏRLİ,**
***"Azərbaycan"***

# “Şahmarın eşq əsəri” adlı kitabın təqdimatı keçirilib





*Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində yazıçı-publisist, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü Manya Səxavətqızının şəhid kapitan Şahmar Quliyevin şərəfli ömür və döyüş yolundan bəhs edən “Şahmarın eşq əsəri” kitabının təqdimatı keçirilib. Əvvəlcə Vətən müharibəsi qəhrəmanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Malikqızı çıxış edərək Azərbaycanın Vətən müharibəsində Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin komandanlığı ilə qəhrəman oğulların sayəsində zəfər qazandığını və torpaqlarımızın işğaldan azad edildiyini, qazanılan böyük qələbənin tarixi əhəmiyyətini bildirib.

Qeyd olunub ki, Vətənin bütövlüyü uğrunda canını qurban vermiş bütün oğulların xatirəsi hər kəs üçün əzizdir. Şəhidlərimizin həyat yolu isə gələcəyimiz olan gənclərimizə örnəkdir.

Vurğulanıb ki, şəhidlərimizin ruhuna hörmət, onların ailələrinə qayğı göstərilməsinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Onun müəyyənləşdirdiyi siyasi kurs bu gün Ümummilli Liderin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə çıxış edən Naxçıvan Muxar Respublikası Ali Məclisinin deputatı Üzeyir Məmmədov, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev bildiriblər ki, Manya Səxavətqızının “Şahmarın eşq əsəri” kitabı şəhidimizin ruhuna bir töhfədir. Vətən qəhrəmanlarının xatirəsinin əbədiləşdirilməsi də onların ruhuna sonsuz ehtiram hissindən irəli gəlir. Onlar kitab müəllifinə yaradıcılıq uğurları arzulayıblar.

Kitabın müəllifi Manya Səxavətqızı nəşrin ərsəyə gəlməsində əməyi olanlara minnətdarlıq edərək bildirib ki, şəhid Şahmar Quliyevin şərəfli ömür və döyüş yolundan bəhs etdiyi “Şahmarın eşq əsəri”ndə şəhidimizin Vətən eşqi yer alıb. Qələm sahiblərinin borcudur ki, şəhidlərin xatirəsini əbədiləşdirmək üçün əlindən gələni etsinlər. Müəllif Azərbaycan xalqı üçün igid, qeyrətli və mərd oğul yetişdirən valideynlərə dərin ehtiramını bildirib. Manya Səxavətqızı çıxışında kitab haqqında məlumat verib, vətənpərvər ruhda şeirlər səsləndirib.

Tədbirdə şəhid Şahmar Quliyevin ailə üzvləri və yaxınları şəhid haqqında xatirələrini bölüşüblər. Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəman oğulların valideynlərinin çıxışları dinlənilib.

Tədbirin bədii hissəsində vətənpərvərlik ruhunda mahnılar səsləndirilib.

“Şahmarın eşq əsəri” kitabı şəhidin ailəsinə təqdim edildikdən sonra Naxçıvan şəhərindəki Şəhidlər xiyabanı ziyarət olunub.

# Şərur rayon Ələkli kəndində Şəhidlər məscidi istifadəyə verilib




Sentyabrın 27-si Anım Günündə Şərur rayonunun Ələkli kəndində Şəhidlər məscidinin açılış mərasimi keçirilib. Mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova çıxış edərək bildirib ki, bu gün Azərbaycanın Böyük Qələbə ilə yekunlaşan zəfər yürüşünə başlamasından 4 il ötür. Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Ordumuz 2020-ci ildə 44 gün ərzində düşməni məğlub edərək işğal altında olan torpaqları azadlığa çıxardı. Ötən il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olundu. Torpaqların azadlığı uğrunda xalqımız şəhidlər verdi, qazilərimiz oldu.

Qeyd olunub ki, Azərbaycan dövləti və xalqı şəhidlərin əziz xatirəsini daim uca tutur, fəxrlə anır. Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da şəhid ailələri, qazilər dövlətimizin diqqət və qayğısı ilə əhatə olunub. Qəhrəman Vətən oğullarının doğum və anım günləri qeyd edilir, xatirələri əbədiləşdirilir, rayonlarda şəhidlər üçün abidə kompleksləri, bulaqlar tikilir. Şərur rayonunun Ələkli kəndində istifadəyə verilən Şəhidlər məscidi də igid övladların qəhrəmanlığına göstərilən ehtiramın əlamətidir.

Şərur Rayon İcra hakimiyyətinin başçısı Kamal Cəfərov qeyd edib ki, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin liderlik cəsarəti, igid övladların canı-qanı hesabına sentyabrın 27-dən başlanan zəfər yolu bizləri mübarizlik rəmzi olan Dövlət Suverenliyi Gününə qovuşdurdu. Bu şanlı qələbənin əldə edilməsində Şərur rayonunun Ələkli kəndinin mərd oğullarının da qəhrəmanlıqları dillər əzbəri olub. Vətən mü-





haribəsi qəhrəmanı Adil İbrahimli məhz bu torpağın yetirməsidir. Eyni zamanda bu kəndin cəsur oğulları İlkin Rzayev, Elton Qənbərli, Rauf Qurbanov, İbrahim Sadiqli, Sərxan Salahov da Vətən müharibəsi zamanı misilsiz qəhrəmanlıqlar göstəriblər.

Kamal Cəfərov qeyd edib ki, ölkə Prezidentinin multikultural dəyərlərin qorunması sahəsində həyata keçirdiyi işlər nəticəsində bu gün Azərbaycan dinlərin birgəyaşayış və qarşılıqlı hörmət məstəvisində inkişaf etdiyi ən tolerant ölkələrdən biridir.

Vurğulanıb ki, Ələkli kənd cəmiyyətinin ötən ilin avqust ayında rayon İcra Hakimiyyətinə şəhidlərin xatirəsinə həsr olunmuş yeni məscid binasının tikintisi ilə bağlı etdikləri müraciət müsbət qarşılanıb, müvafiq dəstək göstərilib. Yaradılan şərait və imkanlar nəticəsində bu möhtəşəm məscid binasının inşası bir il ərzində başa çatdırılıb.

Məscidin üzərində 16 metr hündürlüyündə bir minarə və künbəz inşa olunub. 220,6 kvadratmetr ərazidə salınmış bir mərtəbəli məscidin daxili 172 kvadratmetr sahəni əhatə edir. Məsciddə eyni vaxtda 155-ə yaxın insan ibadət edə bilər, fiziki qüsurlu şəxslərin rahat ibadəti üçün də şərait yaradılıb, zəruri texniki avadanlıqlarla təchiz edilib. Məscidin həyətində, eyni zamanda köməkçi bina da inşa olunub.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şuranın sədri Sahib Məmmədov “Qurani-Kərim”dən ayələr səsləndirib, İslam dininin aşıladığı xeyirxah əməllərdən danışıb, yeni məscidin inşasının kənddə dəyərlərimizin düzgün şəkildə öyrənilməsi, yaşadılması baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Kənd ziyalıları, ağsaqqallar, şəhid anaları, ataları, məscidin tikintisində əməyi keçən şəxslər, ictimai birliklərin rəhbərləri Ələkli kəndində ilk məscidin inşa edilməsini yüksək qiymətləndirib, Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan tarixi zəfərdən, qəhrəman oğulların keçdiyi döyüş yolundan söhbət açıblar.

Mərasimdə çıxış edənlər yeni məscidin istifadəyə verilməsi münasibətilə kənd sakinlərinə təbriklərini çatdırıb. Ələkli kənd tam orta məktəbinin şagirdləri vətənpərvərlik ruhunda şeirlər səsləndirib, şəhidlərimizin həyat və döyüş yolundan bəhs ediblər.

Sonra yeni istifadəyə verilən Şəhidlər məscidində ilk azan səslənib, binada yaradılan şəraitlə tanışlıq olub, məsciddə “Qurani-Kərim” hədiyyə edilib.

Sonda xatirə şəkli çəkdirilib.

# İpoteka kreditlərinin məbləğlərində dəyişiklik edilərək maksimal səviyyəyə çatdırılmışdır

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən “Şərq qapısı”na verilən məlumata görə, ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikada gənc ailələrin mənzilə olan tələbinin təmin olunması, rifahının yaxşılaşdırılması məsələsi prioritet vəzifə kimi müəyyən edilib. Bu istiqamətdə ardıcıl tədbirlər görülür.

Bu günlərdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində müşavirə keçirilib. Müşavirədə “Naxçıvan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyətinə bir sıra tapşırıqlar verilərək gənc ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar adi ipoteka və güzəştli ipoteka kreditlərinin məbləğlərində dəyişiklik edilməsi, məbləğlərin ölkə səviyyəsinə uyğunlaşdırılması müəyyən edilmişdir.

Məlumat üçün qeyd edək ki, bununla əlaqədar olaraq “Naxçıvan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyəti artıq oktyabrın 1-dən etibarən Naxçıvan Muxtar Respublikasında əhalinin ipoteka kreditlərinə əlçatanlığının artırılması məqsədilə ipoteka kreditlərinin, o cümlədən güzəştli ipoteka kreditinin maksimal məbləğini artıraraq 8 faizli ipoteka krediti 150 min manata, 4 faizli ipoteka krediti isə 100 min manata çatdırılmışdır.

Gənc ailələr İpoteka Fondunun müvəkkil bankları ilə əlaqə saxlayıb maksimal məbləğdə ipoteka kreditlərindən yararlana biləcəklər. Qeyd edək ki, kreditlərin ayrılması üçün “Naxçıvan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyətinə tələb olunan qədər vəsait ayrılmışdır.

# Sahibkarlıq sahəsində yoxlama aparan qurumların məsul əməkdaşları üçün təlim keçirilib

Oktyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyinin birgə təşkilatçılığı ilə sahibkarlıq sahəsində yoxlama aparan qurumların məsul əməkdaşları üçün Naxçıvan Biznes Mərkəzində təlim keçirilib.



Təlim “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 28 avqust 2013-cü il tarixli 955 nömrəli Fərmanının 2-ci maddəsinin 2.1-ci bəndinin icrası məqsədilə təşkil edilib.

Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat şöbəsinin Notariat bölməsinin rəisi Zülfü İsmayılov “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi, yoxlamaların vahid məlumat reyestrinin yaradılması zərurəti və məqsədi” mövzusunda çıxış edib. Bildirib ki, qanun və onun tətbiqi barədə Azərbaycan Prezidentinin müvafiq Fərmanı sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid qaydalarının müəyyən edilməsi, bu sahədə yoxlayıcı orqanın və sahibkarların hüquq və vəzifələrini bilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Zülfü İsmayılov çıxışında ölkəmizdə sahibkarlıq sahəsində yoxlamaların məqsəd və prinsipləri, təşkili və aparılması qaydaları, yoxlayıcı orqanların və vəzifəli şəxslərin hüquq və vəzifələri, sahibkarların hüquq və maraqlarının müdafiəsi ilə bağlı məsələlərə də toxunub. Əlavə olaraq qeyd edib ki, Prezidentin Fərmanına əsasən yoxlamaların vahid məlumat reyestrinin aparılması öhdəliyi Ədliyyə Nazirliyinin üzərinə qoyulub. Nazirlik reyestrin məlumat bazasının formalaşdırılmasını, saxlanılmasını, idarə olunmasını, avtomatlaşdırılmış və fasiləsiz rejimdə fəaliyyətini, tamlığını və mühafizəsini təmin edir.

Sonra İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı və tənzimlənməsi şöbəsinin müdiri Aqibət Əliyev “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş məsələlərə aydınlıq gətirib.

Tədbir iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə davam edib.

# Dövlət Proqramı uğurla icra edilir

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən "Şərq qapısı"na verilən məlumata görə, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər ardıcıl olaraq davam etdirilir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq nazirliyin Geologiya və Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi tərəfindən 2023-cü ilin dekabr ayından Naxçıvan iqtisadi rayonu ərazisində qara, əlvan və nəcib metalların axtarışı və qiymətləndirilməsi işlərinə başlanılıb.

Ağdərə-Nəsirvaz filizləşmə sahəsində 251 paqonmetr dərinliyində axtarış-kəşfiyyat quyusu qazılıb və 38 ədəd kern nümunəsi götürülüb. Götürülən nümunələr üzərində laborator analizlər aparılaraq müsbət nəticələr əldə edilib. Belə ki, qurğuşunun (Pb) miqdarı sınaqların 19-da 1,023-2,546 faiz, 6-da isə 0,5-0,935 faiz təşkil edib.

Adıçəkilən filizləşmə sahəsində layihə dərinliyi 250 paqonmetr olan 249 paqonmetr dərinliyində ikinci axtarış-kəşfiyyat quyusu da qazılıb. 2024-cü ilin sentyabr ayının sonlarında başa çatan buruq-qazma işləri zamanı kern nümunələri götürülüb və analizlər aparılması üçün laboratoriyaya göndərilib.

Məlumat üçün bildirək ki, əlvan və nəcib metalların axtarışı və qiymətləndirilməsi məqsədilə indiyədək 1392 $m^3$ həcmində xəndək qazılıb.

Qeyd edək ki, layihə üzrə 3-cü axtarış-kəşfiyyat quyusunun qazılacağı yer müəyyənləşdirilib, qazma aqreqatının servis-təmir işlərinə, quyu meydançasına yanaşma yolunun çəkilməsinə və digər kameral işlərə başlanılıb.

# "Uşaq müdafiəsi və təhlükəsizliyi" mexanizminin tətbiqi layihəsinə start verilib



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan Nümayəndəliyi ilə birgə Naxçıvanda təlimlərə başlayıb.

Layihənin tətbiqində məqsəd Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın müvafiq bəndlərinin icrasının təmin olunmasıdır. Layihənin məqsədi uşaqların zorakılıqdan müdafiəsi, çətin həyat şəraitində olan uşaqların erkən aşkar edilməsi və müvafiq psixo-sosial dəstəyin təmin edilməsidir. Bu məqsədlə ilk mərhələdə məktəblərin pedaqoji heyətinin, sinif rəhbərlərinin, uşaqların və valideynlərin müvafiq olaraq təlimləndirilməsi və məlumatlandırılması nəzərdə tutulur. Layihə çərçivəsində Naxçıvan şəhərinin ümumtəhsil məktəblərinin pedaqoji heyəti üçün təlimlər keçirilib. Təlimlər oktyabrın 12-dək davam edəcək.

# Beynəlxalq Kənd Təsərrüfatı Konqresinin yeddincisi Naxçıvan Dövlət Universitetində keçirilib



Konqresdən öncə qonaqlar xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsi önünə gül dəstələri düzüb, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Tədbir Ulu Öndər Heydər Əliyevin və Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün, eləcə də Vətən uğrunda canlarından keçən şəhidlərin əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Sonra Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Ardınca Naxçıvan Dövlət Universitetinin ev sahibliyi etdiyi konqresin Türkiyənin Pamukkale, Giresun, İğdır, Kahramanmaraş Sütçü İmam universitetləri və Anadolu Ziraat Mühəndisliyi Dərnəyinin birgə təşkilatçılığı ilə açılışı baş tutub.

"Naxçıvan Dövlət Universitetinin strateji inkişaf planında qardaş Türkiyə Cümhuriyyəti universitetləri ilə əlaqələr bizim üçün prioritet məsələdir. Bu baxımdan keçirilən VII Beynəlxalq Kənd Təsərrüfatı Konqresi xüsusi əhəmiyyətə malikdir". Bu fikirləri Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ali təhsil ocağında keçirilən VII Beynəlxalq Kənd Təsərrüfatı Konqresinin açılış tədbirində səsləndirib. Qeyd olunub ki, qardaş ölkənin bir çox universitetləri ilə müxtəlif sahələrdə birgə əməkdaşlıqlar mövcuddur ki, bunlar arasında kənd təsərrüfatı sahəsinə dair ixtisaslar mühüm yer tutur. Bildirilib ki, konqresin ali təhsil müəssisələri arasında keçirilməsi gələcəkdə bu istiqamətdə ixtisaslı kadrların yetişməsinə öz töhfəsini verəcək.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya diqqətə çatdırıb ki, Türkiyə universitetləri Naxçıvan Dövlət Universiteti ilə akademik sahədə təcrübələrin paylaşılmasına xüsusi önəm verir. Asip Kaya VII Beynəlxalq Kənd Təsərrüfatı Konqresində veriləcək məlumatların universitetlərin akademik həyat və tələbələri üçün faydalı olacağına əminliyini bildirib. Vurğulanıb ki, son üç ildə Türkiyə ilə Azərbaycan arasında kənd təsərrüfatı sahəsində bir çox bəyannamə və Anlaşma Memorandumu imzalanıb.

Konqresin sədri, professor Turan Qaradəniz, Kahramanmaraş Sütçü İmam Universitetinin rektoru, professor Alptekin Yasim, İğdır Universitetinin professoru Səlahəttin Çələbi, Dənizli vilayətinin Baklan bələdiyyəsinin sədri Yusuf Gülsevər, Dənizli vilayətinin Çameli bələdiyyəsinin sədri Cəngiz Arslan Türkiyə ilə Azərbaycan arasında kənd təsərrüfatı sahəsindəki güclü əməkdaşlıqdan bəhs ediblər.

Sonra Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecinin müəllim və tələbələrinin ifasında konsert proqramı baş tutub. Milli və vətənpərvər ruhda ifa olunan musiqi və rəqs nömrələri tədbir iştirakçılarında xoş ab-hava yaradıb. Xanəndələrin ifasında "Mahur" və "Şur" təsnifləri, "Sarı gəlin" və "Naz eləmə" rəqsləri, Azərbaycan mahnısı, zurna ifasında xalq rəqsləri və sazda el havaları alqışlarla qarşılanıb.

Daha sonra qarşılıqlı hədiyyələr təqdim olunub.

Konqres yerlərdə bölmə iclasları ilə öz işini davam etdirib. 61 mövzu ilə 3 salonda davam edən konqresdə dünyanın 7 ölkəsindən 70-dən çox məruzəçi iştirak edib.

Bölmə iclasları sual-cavab formasında davam edib.

# Şahbuz şəhərindəki Ahıllar Evinin sakinləri ilə görüş olub

1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə Şahbuz şəhərindəki Ahıllar Evində tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Fərid Bağırzadə çıxış edərək bildirib ki, BMT-nin Baş Məclisi 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qətnamə qəbul edib və həmin qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabrın 1-i bütün dünyada "Beynəlxalq Ahıllar Günü" kimi qeyd edilir. Bu tarixin beynəlxalq səviyyədə qeyd olunması isə ahıllara qayğının artırılması məqsədi daşıyır. Azərbaycanda ahıl insanlara dövlət qayğısı ildən-ilə artır. Muxtar respublikada ahılların sağlamlıqlarının qorunmasına, yaşayışlarının yüksəlməsinə xüsusi önəm verilir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova vurğulayıb ki, ölkəmizdə ahıl insanlara, onların sosial müdafiəsinə daim xüsusi diqqət və qayğı göstərilir, təminatlarının artırılması üçün ardıcıl işlər görülür. Muxtar respublikamızda ahıl insanlar dövlətin qayğısı ilə əhatə olunur. Muxtar respublikamızın ahıl sakinlərinə müxtəlif növ sosial xidmətlərin göstərilməsi, onların maddi-məişət şəraitlərinin yaxşılaşdırılması, cəmiyyətə inteqrasiyası məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Onlara mütəmadi olaraq tibbi və sosial reabilitasiya xidmətləri göstərilir. Ahıllar Evində sakinlərin rahat yaşaması üçün hərtərəfli şərait yaradılıb.



Tədbirdə Ahıllar Evinin sakinlərinə hədiyyələr təqdim olunub, sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "Ümid" mahnı və rəqs ansamblı konsert proqramı ilə çıxış edib.

# Səyyar Gənclər Xidməti Naxçıvanda öz işini yekunlaşdırıb




19 sentyabr tarixdə Naxçıvan Muxtar Respublikasında start götürən Səyyar Gənclər Xidməti 7 inzibati rayon üzrə fəaliyyətini yekunlaşdırıb.

Məqsədi dövlət gənclər siyasətinin gənclər üçün yaratdığı xidmət və proqramlara uçqar kəndlərdə yaşayan gənclərin də əlçatanlığının artırılması, gənclər siyasəti ilə bağlı maarifləndirmə, eləcə də gənclərin sosial aktivliyinin dəstəklənməsi, asudə vaxtlarının səmərəli təşkili və onların bilik, bacarıq və dünyagörüşünün genişləndirilməsinə yönəlmiş tədbirlər təşkil etmək olan layihə 26 sentyabradək Şərur, Şahbuz, Sədərək, Babək, Ordubad, Kəngərli və Culfa rayonlarını əhatə edib.

Layihə çərçivəsində 7 gün müddətində gənclər üçün sahibkarlıq fəaliyyətinin təşviqi, gənclərin regionlarda məşğulluğunun təmin edilməsi, o cümlədən cəbhə xəttinə yaxın ərazilərdə fəaliyyət göstərməsinin təşviqi və stimullaşdırılması, startapçılar və sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, kənd təsərrüfatının idarə olunması sahəsində bilik, bacarıq və vərdişlərinin inkişafı məqsədilə görüşlər, gənclər siyasəti, şəxsi inkişaf və karyera quruculuğu istiqamətində sessiyalar, robototexnika, rəsm çəkmə, 3D printer və qələm tətbiqi şəbəkə sənəti üzrə master-klaslar, həmçinin şəxsi anketin (CV) yaradılması xidməti təşkil edilib.




Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tərəfdaşlığı ilə tədbir keçirilən ərazidə kənd təsərrüfatı sahəsində məlumatlandırıcı sərgi stendləri qurulub, gənclərə baramaçılıq, bitkiçilik və digər istiqamətlərdə geniş məlumatlar verilib.

Bunlarla yanaşı, layihədə nəzərdə tutulmuş yarış və oyun proqramları çərçivəsində gənclər arasında Azərbaycan xəritəsinin pazl lövhə üzərində qurulması yarışı, stolüstü futbol və darts oyun çempionatı baş tutub.

Ümumilikdə, 7 gün ərzində gənclər üçün 28 təlim, 42 master-klas, 84 oyun təşkil olunub və nəticədə, 1100 gənc xidmətlərdən yararlanıb.

2024-cü il ərzində 2 ay boyunca Azərbaycan ərazisində xidmət göstərən layihə 17 şəhər və rayonda keçirilib və oktyabr ayından etibarən yeni səfərlərə start verilməsi planlaşdırılır.

Ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili"nin elan olunmasına əsasən bu il gənclərin ekoloji məlumatlılığını, həmçinin ətraf mühitin qorunması sahəsində bilik və fəallıqlarını artırmağa yönələn Səyyar Gənclər Xidməti Azərbaycan Respublikasının Gənclər Fondu, Gənclərin İnkişaf və Karyera Mərkəzi və "Gənc Könüllülər" İctimai Birliyi tərəfindən icra olunur.

# Naxçıvan Muxtar Respublikası rayonlarının tarixi kitablarının təqdimatı olub



"Rayonların tarixinin nəşri fəaliyyəti dövründə üççildlik "Naxçıvan tarixi", "Naxçıvan abidələri ensiklopediyası" və başqa fundamental əsərlər yazan Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun tariximizə verdiyi növbəti töhfədir". Bu sözləri AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev rayonların tarixinin təqdimat mərasimində söyləyib.

Bu günədək 5 rayonun tarixinin çapdan çıxdığını qeyd edən bölmə sədri diqqətə çatdırıb ki, "Şərur rayonunun tarixi", "Culfa rayonunun tarixi", "Ordubad rayonunun tarixi", "Kəngərli rayonunun tarixi" və "Sədərək rayonunun tarixi" kitabları Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu əməkdaşlarının ortaya qoyduqları sanballı əsərlərdir. Hər bir əsər ayrı-ayrılıqda sistemli aparılmış tədqiqat işi olmaqla yanaşı, AMEA Naxçıvan Bölməsinin fəaliyyətinin əsasını təşkil edən Naxçıvan tarixinin öyrənilməsinə xidmət edir.

Təqdim olunan kitabların əhatə etdiyi mövzular, müəlliflərin ortaya qoyduqları araşdırmaların əhatəliliyindən danışan akademik çıxışının sonunda müəllifləri təbrik edib, uğurlarının davamını arzulayıb.

Mərasimdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu əməkdaşlarından AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Sədərək rayonunun tarixi", tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev "Şərur rayonunun tarixi", tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyeva "Ordubad rayonunun tarixi", tarix üzrə fəlsəfə doktoru Musa Quliyev "Culfa rayonunun tarixi", tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilov "Kəngərli rayonunun tarixi" mövzularında məruzə ediblər.

Məruzələrdə təqdim olunan kitabların strukturu, araşdırmaya cəlb olunan mövzular barədə ətraflı məlumat verilib. Vurğulanıb ki, əsərlərdə diqqətçəkən məqam təkcə rayonun mövcud olduğu dövrü deyil, bütünlüklə yerləşdiyi coğrafi ərazinin tarixinin araşdırılmasıdır. Kitablarda bölgənin qədimliyi, adının etimologiyası, burada mövcud olan arxeoloji və memarlıq abidələri, qədim tayfalar, Qarabağ müharibələrində Vətən uğrunda canından keçmiş şəhidlərimiz, habelə rayonun təbiəti, sahib olduğu təbii sərvətlər və sair barədə məlumatlar mövcuddur. Diqqətə çatdırılıb ki, ermənilərin Naxçıvana qarşı iddialarının davam etdiyi zamanda rayonların tarixi bölgənin türklərə məxsusluğu məsələsinə də işıq tutur. Bu fakt yerli tayfalarla bağlı məlumatlarda, toponimlərin etimologiyasının izahında, eləcə də aparılan təhlillərdə əksini tapır.

Sonda çıxış edən tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov rayonların tarixinin nəşrində əməyi olan bütün tədqiqatçıları təbrik edib, belə sanballı əsərlər ortaya qoymağı, ümumilikdə, bölmənin uğuru kimi səciyyələndirib.



# 100 ilin qəhrəmanları

*“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan şəhidimiz Röyal Ələkbərovun anası Faiqə Ələkbərovanın, Şərur rayonunun Çomaxtur kəndindən olan şəhidimiz Murad Xəlillinin anası Maman Bağırovanın və Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan şəhidimiz Sübhan Məmmədlinin anası Nailə Məmmədlinin övladları haqqında xatirələri yer alıb.*

## Röyal Fərmail oğlu Ələkbərov

*(23.06.1994-16.10.2020)*

## Müqəddəs şəhidlik zirvəsi





Hərbçi ailəsi olmuşuq. Röyalın əmisi, dayısı da hərbçi idi. Onların söhbətlərinə maraqla qulaq asırdı. Oğlumun hərbiyə sevgisi, marağı belə yaranmışdı. Öz arzusuna da çatdı. Sənədlərini hazırlayıb Heydər Əliyev adına Hərbi Liseyə vermişdi. Yaxşı da oxuyurdu. Hərbi liseyi bitirdikdən sonra Bakı şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldu. Əla qiymətlərlə bitirdi. 4 il Murovdağda qulluq etdi. Ailədə tərbiyəsi, mərifəti ilə könlümüzdə taxt qurmuşdu. Müharibədə də öz yoldaşları arasında belə hörmət qazanmışdı. Biz də çox sevinirdik onun belə hörmət qazanmasına. Şəhidlik zirvəsinə yüksələndən sonra da eləcə qürur hissi keçiririk.



Müharibəyə gedəndə mənə bildirməmişdi ki, narahat olaram. Atası, əmisi, dayısı ilə danışaraq demişdi ki, anama heç nə deməyin, fikri yanımda qalmasın. Özüm imkan olduqca zəng vurub danışacağam. Telefonla elə gülə-gülə danışırdı ki, müharibədə olmağını hiss etməyim. Bunu sonralar başa düşdüm. Elə bilirdim, Gəncədədir. Bəzən danışanda görürdüm ki, kefsizdir. Səbəbini soruşanda deyirdi ki, yoldaşlarım müharibədədir, mən isə Gəncədə könüllülərə təlim keçirəm. Sən demə, balam müharibədədir. Odun, alovun içərisində döyüşür.

Röyal mənimlə sonuncu dəfə ayın 14-ü danışdı, dedi ki, ana, narahat olma, mən yaxşıyam. Görürsən, kefim necə yaxşıdır. Bir-birinizdən muğayat olun. Atası ilə də belə danışmışdı. Ona da deməmişdi müharibədə olduğunu. Danışarkən məni çox arxayın saldığından heç hiss etmirdim, döyüşdədir.

Ayın 16-sı axşam şəhid olub. Mənə dedilər ki, yaralıdır. İnanmadım. Kim fikirləşərdi ki, müharibənin qızğın vaxtı gülüşlə, sevinclə danışasan, müharibədə olduğunu büruzə verməyəsən.

Bir yerdə getdiyi hərbçilərdən sağ qayıdanlar gəlib əllərimi öpürlər. Deyirlər ki, biz sağ qayıtmışıqsa, komandirimizin hesabınadır. Bir şəhid anası kimi elə oğul böyütdüyümə görə qürur duyuram.

Bu gün tək Röyaldan danışmıram. Bu, haqsızlıq olar. Mən şəhidlərimizlə, qazilərimizlə, döyüşdə iştirak edən bütün vətənpərvər oğullarımızla fəxr edirəm. Fəxr edirəm ki, Azərbaycanımızda belə qeyrətli oğullar vardır. Analarla fəxr edirəm ki, onlar belə oğullar böyütdü, onlar qanları, canları hesabına işğalda olan torpaqlarımızı azad etdilər.

Şəhidlərimizin məqamı uca olsun! Allah xalqımızı qorusun!

## Murad Vəli oğlu Xəlilli

*(14.07.1994-30.10.2020)*

## Şərəfli adını tarixə həkk edən oğul





Murad çox vətənpərvər uşaq idi. Bir valideyn kimi bunu o, orta məktəbdə oxuyanda hiss etməyə başlamışdım. Dərslərini də yaxşı oxuyurdu. Müəllimləri ondan razılıqla danışırdı. Yaxşı xatırlayıram ki, Murad xalqımızın başına gətirilən müsibətlərdən tez-tez söhbət salırdı. Birinci Qarabağ müharibəsində şəhid olanların qisasını alacağıq deyirdi. Deyirdi ki, torpaqlarımız düşmən tapdağı altında qalmamalıdır. Vətən ata-baba əmanətidir. Onu qorumaq bizim borcumuzdur.

Evcanlı idi. Bütün təsərrüfat işlərində bizə kömək edirdi. Yaxşı da dostları var idi. Onu da tez-tez düşünürəm ki, övladım dünyaya gələndə ölkəmiz ağır günlər keçirirdi. Azğın qonşularımız bir neçə rayonumuzu işğal etmişdilər.

Bəlkə də, o illərdə doğulan uşaqlar ona görə də daha vətənpərvər böyüdülər.



Ürəklərində yurda məhəbbət, düşmənə nifrət olan belə övladlarımız 44 günlük müharibədə öz sözlərini dedilər. Ölümdən qorxmadılar. Cəsarət və şücaət göstərdilər. Düşünmədilər ki, onları arxada gözləyənlər var. Düşündülər ki, torpaqlarımızı geri alsınlar və buna da nail oldular. Çünki onların hər biri vətənpərvər böyümüşdü. Vətən isə ən müqəddəs məkandır.

Həmişə onlarla qürur duymuşuq. Bu gün də şəhidlərimizin adı çəkiləndə fəxarət hissi keçiririk. Çünki onlar bizim 30 il gözlədiyimizi özümüzə qaytardılar. Bu, şərəfli bir yol idi. O yolda kimi şəhid oldu, kimi öz evinə qazi kimi qayıtdı. Bu gün təsəllimiz odur ki, torpaqlarımız özümüzdədir. Vaxtilə orada yaşayan və erməni vandalları tərəfindən qovulan soydaşlarımız bu gün doğulduqları torpaqlara dönərkən xeyli sevinmişəm. Sevinirəm ki, onların yurd-yuvalarına qayıtmaqlarında mənim də övladımın payı var. Halal olsun! Həm də sevinirəm ki, Muraddan yadigar qalan bir övladı var. Müharibəyə gedirdi. Utana-utana övladından muğayat olmağımızı xahiş etdi. Təbii ki, bütün valideynlər kimi o da övladına çox bağlı idi.

Ona da sevinirəm ki, şəhidlərimizi heç bir vətənsevər unutmur. Onlar daim ürəklərdə xatırlanırlar. Dövlətimiz isə daim şəhid və qazi ailələrinin yanındadır. Onların rastlaşdıqları problemləri yerindəcə həll edir.

Müharibədə göstərdiyi şücaətə görə alnımız açıq, başımız ucadır. Allahdan bütün şəhid ailələrinə səbir diləyirəm. Şəhid valideynləri ilə tez-tez görüşürük, bir-birimizə təskinlik veririk. Qürur duyuruq onlarla! Ruhları şad olsun!

## Sübhan Səbuhi oğlu Məmmədli

*(12.08.1994-06.10.2020)*

## Gələcək nəsil üçün misilsiz qəhrəmanlıq örnəyi







Sübhan haqqında danışmaq biraz çətin olsa da, amma bu mənə qürur verir. Uşaqlığından bəri tərbiyəsi, vətənərvərliyi ilə seçilən, böyük-kiçik yeri bilən idi. Hərbi xidmətində də bu gözəl xüsusiyyətləri ilə tanınmışdı. Sağlığında qazandığı hörmətdəndir ki, şəhadətindən sonra da əsgərləri gəlib bizə baş çəkirlər. Onların Sübhanla bağlı danışdığı xoş xatirələr bizim üçün çox əzizdir, undulmazdır. Vətənini sevən oğul, təbii ki, Vətən üçün hər şey edər. Sübhan davranışı, vətənpərvərliyi ilə əsgərlərinə nümunə olub.

Sübhan ata-anaya da qarşı mehriban idi. Bir övlad kimi daim hörmətimizi saxlayardı. Ailədə iki qardaş olublar. Qardaşına da eynilə çox mehriban idi. Qohum-əqrabada da hamı onu çox istəyirdi. Çünki o, az yaşında bu sevgini qazanmışdı. Ailəcanlı, işinə sevgi ilə yanaşırdı. Vətənə, dövlətə bağlı bir oğul idi. Vətəni daha çox sevirdi. Məhz bu sevgidən irəli gəlirdi ki, Vətəni seçdi. Vətən yolunda canını qurban verməyə hazır oldu. O bu yolu seçərkən heç tərəddüd etmədi. Bu onun üçün böyük bir şərəf idi. O öz şərəf, ləyaqət borcunu layiqincə yerinə yetirdi. Ömrünün 26 ilini şərəflə yaşadı. Hərb yolunu seçərkən bilirdi ki, onun hansı çətinlikləri var. Vətən sevgisi, ona bağlılığı Sübhanı bu yolda irəliyə səslədi. Bu gün o hər kəsin də xatirində gözəl insan olaraq yad edilir. Çünki Sübhan kimsəni incitməz, qəlbinə dəyməzdi. Onu tanıyan hər kəs haqqında yaxşı xatirələrini dilə gətirir. Biz onun adı çəkiləndə qürur duyuruq.

Hər bir ata-ananın arzusudur ki, övladının adı çəkiləndə fərəh hissi keçirsin. Sübhan da bu qüruru, fərəh hissini yaşadan oğullardan oldu. Düzdür, övlad itkisi ağırdır, yoxluğuna dözmək çətindir. Amma ürəyimiz rahatlıq tapır ki, bizim balamız Vətən yolunda canını sipər edib. Bu bizə təsəllidən çox, baş ucalığı verdi. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirik. Onlarla silahdaş olmuş cəbhə yoldaşları olan qazilərimiz var olsunlar. Onların hər biri canlı tarixdilər. Hər biri Vətən üçün əziz canlarını gözə alıb, cəbhədə döyüşüblər. Vətən adını daima uca tutublar. Bu uca ad bütün şəhid ana-atalarının təsəllisidir. Bizim analar daim bu Vətən üçün qəhrəman oğullar böyüdəcək. Bu cür igidlərimizin sayəsində də bu xalq daim var olacaq. Biz bu gün qəhrəman oğulların böyüdüyü nəsli görürük. Onlar şəhidlərimizin, qazilərimizin keçdiyi şərəfli yolu öyrənirlər. Bu yol onlar üçün Vətənə sevgi, məhəbbət, dönməzlik yoludur.

# Gələcək naminə parlayan Günəş,

## yaxud yolumuza mayak olanlar...










**Prezident İlham ƏLİYEV:**

***"Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur".***










**Müəllim…** Bu kəlmə sadə bir peşəni xatırlatsa da, dərin bir məna kəsb edir, əslində. Elə bir məna ki onu Platon "Tanrının şah əsəri" olaraq dəyərləndirib, Henri Bruks Adams isə "əbədiyyətə hökm edən insan". Məhəmməd Peyğəmbər bilik öyrətməyi hər cür ibadətdən üstün sayıb, Həzrəti Əli isə "Mənə bir hərf öyrədənin qulu olmağa hazıram", – deyib. Nizami Gəncəvi müəllimi Günəşə bənzədib, Viktor Hüqo isə insanları aydınlığa çıxaran işığa… Daha kimlər, kimlər müəllimlə bağlı dahiyanə fikirlər səsləndirib. İnsan həyatında, mənəviyyatında, insani keyfiyyətlərin formalaşmasında müəllimin əvəzolunmaz əməyi, zəhməti var. Çünki əsl müəllim təkcə bilik verən deyil, məşhur rus yazıçısı Qoqolun da dediyi kimi, ruhu tərbiyə edəndir...

Bəli, müəllimlik elə bir peşədir ki, bu peşə sahiblərinin ömrü yanar şama bənzəyir. O şam yandıqca ətrafa işıq saçır, nur paylayır. Elə bir nur ki neçə-neçə insanın həyat yolunu işıqlandırır. Heç şübhəsiz ki, dünyada müəllim əməyinin bənzəri yoxdur. Əgər bu gün bəşəriyyətin çatdığı yüksək inkişaf səviyyəsindən, elmi-texniki nailiyyətlərdən məmnunluqla söhbət açırıqsa, bunu müəllim dahiliyinə borcluyuq. Çünki cəmiyyətin əzəli müəllim əməyi ilə bağlıdır. Deyirlər ki, hər kəsin taleyində hökmən bir müəllimin toxunuşu var. Bəli, hər bir insanın həyatında onun əlindən tutub "ana", "Vətən" kəlmələrini yazdıran, oxudan, ləyaqətli vətəndaş kimi yetişdirən, şəxsiyyət kimi formalaşdıran müəllimlər olub. Məhz həyatımız boyu o müəllimlərimizin varlığına, əxlaqına borclu olmuşuq. Həyatımızdakı çox uğurlarımızın təməlində müəllim əməyi dayanır. Heç bir nailiyyət ani olaraq baş vermir, müvəffəqiyyətimizin arxasında, əlbəttə ki, müəllimlərimizin illər boyu çəkdikləri gərgin zəhmət var. Alim də, sərkərdə də, hakim də, həkim də, bir sözlə, həyatda tutduğu mövqedən asılı olmayaraq, hər kəs müəllimi qarşısında baş əyir, ona səcdə qılır, onu həmişə xoş duyğularla xatırlayır.

Müqəddəs peşə sahibi olan müəllimlər öz fədakarlıqları, səbirləri, sədaqətləri ilə şagirdlərinə bilikdən başqa bir də ürək və ruh zənginliyi bəxş edirlər. Şagirdi büdrəyəndə onun əlindən tutan da müəllimdir, yıxılanda onu qaldıran da, uğurlarına öz uğuru qədər sevinən də. Bu adı daşıyanlar, bəlkə də, ömürlərini yetirmələri yolunda şamtək əritdikləri üçün bu qədər ulu və müqəddəsdir.

44 günlük Vətən savaşında düşmənin başına zərbələr endirən, ərazi bütövlüyümüzü qanı, canı bahasına bərpa edən, xalqımıza zəfər sevincini yaşadan, sinəsini düşmənə sipər edən hər bir oğulun qanına, canına Vətən sevgisini hopduran da elə müəllimdir.

Bu gün 5 oktyabr – Beynəlxalq Müəllimlər Günüdür. Bu əlamətdar gün Azərbaycanda 1993-cü ildən bəri qeyd edilir. Ölkəmizdə bu günə dövlət səviyyəsində diqqət ayrılır. Ümummilli Liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirib, müəllim haqqında xoş sözlər söyləyib. O, öz müəllimlərini hər zaman minnətdarlıqla xatırlayıb, onların xidmətləri haqqında ürəkdolusu danışıb. Ulu Öndər hər zaman müəllimə hörmət və ehtiramla yanaşıb, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılması qayğısına qalıb. Dahi lider deyirdi: ***"Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir".*** Müəllimlik adına ən yüksək dəyər verən dahi Heydər Əliyevin ***"Mən dünyada müəllimdən yüksək ad tanımıram"*** kəlamına sadiq olan, cəmiyyətə hər bir xüsusiyyəti ilə örnək olan, müəllim adının ucalığını və şərəfini dərindən dərk edən, bu müqəddəs missiyanı vicdanla yerinə yetirən müəllimləri "Şərq qapısı" qəzetinin kollektivi adından səmimi qəlbdən təbrik edir, gələcək nəsillərə əvəzedilməz mənəvi sərvət bağışlamağı, bəşəriyyətin xilasına yönələn ali idealları yaşatmağı, bu müqəddəs amalla ucalığa qovuşmağı diləyirik!

**✍ Gülcamal TAHİROVA**

## İstehlakçı hüquqlarının müdafiəsi məqsədilə seminar keçirilib



Azərbaycan İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin nümayəndələri Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əməkdaşları üçün təcrübə mübadiləsi məqsədilə seminarlar keçiriblər.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, maarifləndirici tədbirin ilk günündə istehlakçı hüquqlarının müdafiə vasitələri, sözügedən sahədə mövcud qanunvericilik aktlarından irəli gələn məsələlər və digər əhəmiyyətli mövzuları əhatə edən təqdimatlar olunub. Həmçinin Dövlət Xidməti tərəfindən istehlakçı hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində pozuntu hallarının öncədən qarşısının alınması istiqamətində görülən işlər diqqətə çatdırılıb. İstehlak bazarında istehlakçı məmnunluğuna nail olunması üçün dövlət-özəl tərəfdaşlığının vacibliyi vurğulanıb, istehlakçıların hüquqlarının təmin edilməsində sahibkarların rolunun artırılmasının əhəmiyyətindən bəhs edilib.

Rəqabət Məcəlləsinin tətbiqinə həsr olunmuş növbəti seminarda muxtar respublikanın aidiyyəti qurum əməkdaşları ilə yanaşı, təbii inhisar subyektlərinin nümayəndələri və sahibkarlar da iştirak ediblər. Tədbir çərçivəsində rəqabəti məhdudlaşdıran sazişlər, iqtisadi təmərküzləşmələr, haqsız rəqabət və hökmran mövqedən sui-istifadə hallarının aradan qaldırılmasına dair məcəllədə yer alan tənzimləmə mexanizmləri diqqətə çatdırılıb.

Sonda tədbir iştirakçıları ilə məcəllənin effektiv tətbiqi üsulları istiqamətində qarşılıqlı müzakirələr baş tutub.

## Batabatda gənc rəssamların incəsənət döyüşü – V "Art Battle" reallaşıb

Gənclər arasında muxtar respublikanın 100 illik yubileyinə həsr olunmuş "Art Battle" adlı rəssamlıq müsabiqəsinin əsas mərhələsi keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, "Naxçıvan gənclərin fırçası ilə" devizi altında təşkil olunan müsabiqənin həlledici günündə onlayn qeydiyyatdan keçmiş 15 gənc bacarığını nümayiş etdirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Aparat rəhbəri İlhamə Nəzərova və Naxçıvan Müəllimlər İnstitutunun müəllimi Murad Babayev ölkəmizdə gənclərə göstərilən dövlət qayğısından bəhs edib, ənənəvi müsabiqənin gənclərin yaradıcılıq potensialının yüksəldilməsindəki rolundan danışıblar.



Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Naxçıvan Müəllimlər İnstitutunun tərəfdaşlığı ilə akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkında – Batabat yaylağında təşkil olunan yarışmada gənclər müsabiqə şərtlərinə uyğun olaraq muxtar respublikanın tarixini, mədəniyyətini və təbiətini özündə təcəssüm etdirən rəsmlər çəkiblər.

Sevinc Fərzəliyeva və Yasəmən Səfərovanın yaradıcılıq işləri münsiflər heyəti tərəfindən 1-ci yerə layiq görülüb. Nuray Abbasova ilə Leyla Əhmədova ikinci olublar. Sunay Qasımova və Aysu Bağışova müsabiqəni üçüncü pillədə tamamlayıblar. Gənclərə nazirliyin diplom və hədiyyələri təqdim olunub.

## Naxçıvanlı 4 gimnast Qubada keçirilən turnirin medalçısı olub



Quba Olimpiya İdman Kompleksində bədii gimnastika üzrə "Grace of Nature" turniri keçirilib. Yarışda paytaxt Bakı və bölgələri təmsil edən 26 klubdan 255 idmançı iştirak edib. Üç gün davam edən yarışlarda fərdi proqramlar və qrup hərəkətləri üzrə qaliblər müəyyən olunub.

Naxçıvandan məşqçi Humay Qafarovanın rəhbərliyi ilə 7 idmançı yarışda çıxış edib. Onlardan 4-ü mükafatçılar sırasına düşüb. Təmsilçilərimiz 2 gümüş və 2 bürünc medal qazanıblar. Belə ki, halqa ilə hərəkətlərdə Təranə Əlizadə və İlay Sangur ikinci, Aydan Hüseynli isə üçüncü olublar. Digər gimnastımız Mədinə Novruzlu topla hərəkətlərdə üçüncü yerə layiq görülüb.

# 100 yaşlı muxtariyyətin prokurorluq orqanları



Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü il 30 dekabr tarixdə "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" müvafiq Sərəncam imzalanmışdır.

Sərəncama əsasən muxtar respublikada bir əsr ərzində keçilən yol, bu yolda qarşıya çıxan çətinliklər, həmin çətinliklərin aradan qaldırılması ilə bağlı görülən işlər müxtəlif silsilə tədbirlərlə qeyd edilir.

Vurğulayaq ki, digər sahələr kimi Naxçıvanda hüquq-mühafizə orqanları da ilkin mərhələdən başlayaraq uzun bir yol keçib.

Bir qədər keçmişə ekskurs etsək, görərik ki, 1849-cu ildə yaradılaraq Zaqafqaziyanın vahid siyasi idarəçiliyinin tərkib hissəsinə çevrilən İrəvan quberniyasına Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzaları daxil idi.

1869-cu ildə aparılan məhkəmə islahatlarına əsasən Naxçıvanda mirovoy (barışıq) məhkəməsi təsis edilir. Məhkəmələrə rəhbərlik edən hakimlər Qafqaz canişini tərəfindən təyin olunurdu.

Naxçıvanda 1920-ci illərin əvvəllərində Naxçıvan İnqilab Komitəsinin nəzdində Fövqəladə İstintaq Komissiyası yaradılır.

Naxçıvan İnqilab Komitəsinin 1920-ci il 13 dekabr tarixli Qərarı ilə Naxçıvanda köhnə məhkəmə sistemi ləğv edilir, Naxçıvan SSR-nin hər üç qəzasında (Naxçıvan, Şərur-Dərələyəz, Ordubad qəzalarında) komitənin qərarına uyğun olaraq məhkəmələrdə ittiham və müdafiə funksiyalarının həyata keçirilməsi və mülki işlər üzrə dövləti təmsil etmək məqsədilə Qəza İnqilab komitələrinin yanında ittihamçılar kollegiyası təşkil edilir. Bu kollegiyanın fəaliyyətinin əsasını isə Azərbaycan SSR İnqilab Komitəsinin dekreti, Naxçıvan Sovet Respublikası İnqilab Komitəsinin qərarı və Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının təlimatı təşkil edirdi. İttihamçılar kollegiyası cinayətlərin istintaqı zamanı mövcud qanunlara əməl edilməsinə nəzarəti həyata keçirir, cinayət işləri üzrə məhkəmələrdə ittihamı müdafiə edir və məhkəmələrin qeyri-qanuni və əsassız hökmlərindən kassasiya protesti verirdi.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əsası Naxçıvan Diyar Xalq Komissarları Sovetinin 1922-ci il 5 sentyabr tarixli dekreti ilə qoyulmuşdur. Elə həmin ildə Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının əmrinə əsasən Naxçıvan SSR Xalq Ədliyyə Komissarlığının strukturu təsdiq edilir. Beləliklə də, Xalq Ədliyyə Komissarlığında müvafiq şöbələrdən biri də dövlət prokurorluğu olur.

Naxçıvan Prokurorluğuna dekretlə müəyyən olunmuş qaydada qanunçuluğa dürüst əməl etmək, istintaq və təhqiqata nəzarət etmək, məhkəmədə dövlət ittihamını müdafiə etmək və sair səlahiyyətlər verilmişdi.

Naxçıvan SSR Xalq Ədliyyə Komissarı həm də dövlət prokuroru vəzifəsini icra edirdi. Müvafiq dövlət prokurorluğu şöbəsində isə müxtəlif sahələrə nəzarəti həyata keçirən şöbə prokurorları mövcud idi. Qəzalarda isə dövlət prokurorları Qəza İcraiyyə Komitələri Ədliyyə şöbələrinin rəisləri idi. Onlar ikili tabelikdə olmaqla həm Qəza İcraiyyə Komitəsinə, həm də Naxçıvan SSR Xalq Ədliyyə Komissarlığına tabe idilər.

Naxçıvan SSR-nin prokuroru (qeyd edək ki, Naxçıvan SSR-nin dövlət prokuroru rəsmən Naxçıvan Cümhuriyyət prokuroru adlanırdı) Naxçıvan SSR Mərkəzi İcraiyyə Komitəsi qarşısında hesabat verirdi və ona tabe idi. Dövlət prokuroru və Xalq Ədliyyə Komissarı Naxçıvan SSR MİK tərəfindən vəzifəyə təyin edilirdi. Naxçıvandakı istintaq və təhqiqat orqanları ikili tabeçilikdə-inzibati cəhətdən məhkəmə, əməliyyat-prosessual cəhətdən isə prokurorluğa tabe idilər.

Naxçıvan MSSR-nin ali qanunvericilik aktları olan 18 aprel 1924-cü il tarixli Əsasnaməyə və 1926-cı il Konstitusiyasına prokurorluq haqqında heç bir müddəa daxil edilməmişdi. Naxçıvan MSSR-də dövlət prokurorluğu 1936-cı ilədək Naxçıvan MSSR Xalq Ədliyyə Komissarlığının nəzdində fəaliyyət göstərmişdi. 1936-cı ildə müstəqil Naxçıvan MSSR-nin prokurorluğu yaradılmışdır ki, bu da, öz növbəsində, Naxçıvan MSSR-nin inzibati ərazisində təşkil edilən rayon və rayonlararası prokurorluqların işinə nəzarəti həyata keçirirdi.

Naxçıvan MSSR-da prokurorluğun müstəqil institut kimi təşəkkül tapması muxtar respublikanın 1936-cı ildə qəbul edilmiş Konstitusiyasının VII fəslinin məhkəmə və prokurorluğa həsr edilməsi ilə bağlı olmuşdur.

Naxçıvan MSSR-nin 1978-ci il tarixli Konstitusiyasında da prokurorluğun fəaliyyəti ilə bağlı xüsusi – 16-cı fəsil (155-158 maddələr) nəzərdə tutulmuşdu.

Qeyd edək ki, bu dövlət təsisatı 1990-cı il 17 noyabr tarixdən Naxçıvan Muxtar Respublikası Prokurorluğu adlandırılıb. Ölkəmizdə prokurorluq orqanlarının sivil və demokratik orqan kimi formalaşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasında prokurorluğa ayrıca müddəa həsr edilməsi prokurorluq və onun dövlət orqanları sistemindəki yeri və rolu barədə olan bütün mübahisələrə son qoydu. Azərbaycan Respublikası Konstitusiyanın 133-cü, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində prokurorluğa ayrıca müddəanın həsr edilməklə, bu mühüm dövlət təsisatının məhkəmə hakimiyyəti sistemində müstəqil orqan kimi müəyyən edilməsi prokurorluq orqanlarına göstərilən diqqət və qayğının bariz nümunəsi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunun 14-cü maddəsi ilə tənzimlənir. Kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi və tabe prokurorluqların müstəqilliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Baş Prokurorunun 24 may 2002-ci il tarixli əmri ilə Naxçıvan Muxtar Respublikası Prokuroruna mühüm səlahiyyətlər verilmişdir. Naxçıvan Muxtar Respublikası Prokurorluğunda məşvərətçi orqan olan və Naxçıvan Muxtar Respublikası Prokurorunun rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollegiyası yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti də Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir. Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmiş, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, prokurorluq orqanları üçün yeni binalar istifadəyə verilmişdir.

Muxtar respublikanın prokurorluq orqanlarının əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də dediyi kimi: ***"Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olaraq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir".***

**Faiq SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri prokurorluğun fəxri işçisi***

# İstehlakçı hüquqlarının qorunmasında mühüm rola malik yeni sistem

*Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, bu xüsusda özəl sektorda gedən inkişaf, müxtəlif profilli məhsul istehsal edən müəssisələrin yaradılması, artan idxal-ixrac prosesləri bu sahədə yeni nəzarət mexanizmlərinin tətbiqini labüd edir. Son illərdə daxili bazarda keyfiyyət amilinə diqqətin artırılması, eyni zamanda kölgə iqtisadiyyatına yol verilməməsi məqsədilə müasir informasiya texnologiyalarının üstünlüklərindən yararlanaraq yeni sistemlər yaradılır. Bunlardan biri də təqib və izləmə sistemidir ki, əksər sahibkarlar, iş adamları bu sistemin üstünlükləri, əhəmiyyəti barədə kifayət qədər məlumata malik deyillər. Elə bu məqsədlə biz də Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşı Zahid Qənbərovla həmsöhbət olub yeni sistemin əhəmiyyəti, rolu ilə bağlı bir sıra məqamlara aydınlıq gətirməyə çalışdıq.*

***– Zahid müəllim, istərdim, əvvəlcə ölkə üzrə, o cümlədən muxtar respublikada da ilk dəfə tətbiq olunan təqib və izləmə sisteminin üstünlükləri, əhəmiyyəti barədə oxucularımıza məlumat verək.***

– Bəli, məlum olduğu kimi, dövlət tərəfindən sahibkarlıq subyektlərinin şəffaf şəkildə fəaliyyət göstərməsi üçün, habelə qanunsuz sahibkarlıqla mübarizə tədbirləri davamlı və ardıcıl olaraq həyata keçirilir. Həmin tədbirlər müasir dövrdə informasiya texnologiyalarının aktiv şəkildə tətbiqini zəruri edib. Bu baxımdan Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən yaradılan Vahid Dövlət Avtomatlaşdırılmış Məlumat "Track and Trace" ("Təqib və İzləmə") sistemi kölgə iqtisadiyyatının aradan qaldırılmasında, aksizli malların və aksiz markalarının saxtalaşdırılmasının qarşısının alınmasında və son nəticədə, istehlakçıların hüquqlarının qorunmasında çox mühüm rola malikdir. Bu sistem istehsaldan və idxaldan son istehlakçıyadək olan bütün dəyər zənciri üzrə aksizli və məcburi nişanlama ilə nişanlanmalı malların dövriyyəsinə nəzarətin həyata keçirilməsinə imkan verir. Həmçinin sistem vasitəsilə markaların sifarişi, çatdırılması barədə bildirişlərin ötürülməsi, aktivləşdirilməsi, izlənilməsi, eləcə də dövriyyəsi barədə məlumatların mərkəzləşdirilmiş qaydada saxlanılması və verilməsi həyata keçirilir. Aksizli məhsulların təqibi və izlənilməsi sistemi izlənilən məlumatların mübadiləsinə, malların istehsalçısı və idxalçısının rəqabətədavamlı mövqedə qalmasına imkan verir, məhsul partiyasının geri çağırılmasına, məhsulların çatdırılma zəncirinin auditinə, yararlılıq müddətlərinə nəzarət, məhsul brendinin müdafiəsinə, risklərin, məhsul ehtiyatlarının idarə edilməsinə şərait yaradır. Təqib və izləmə sistemi təchizat zəncirinin keyfiyyətini, səmərəliliyini artırmaqla yanaşı, nəzarət altında olan aksizli məhsulların təhlükəsizliyinin təmin olunmasını, saxtalaşdırılmasının qarşısının alınmasını təmin edir.

***– Təbii ki, bir çoxlarını, əsas da sahibkarları düşündürən məsələlərdən biri bu sistemin qanunvericilik bazasının necə tənzimlənməsidir.***

– Bəli, qeyd edək ki, "Track and Trace" ("Təqib və İzləmə") sistemi Vergi Məcəlləsinin 50-2.1-ci və 194.1-ci maddələri və Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının və məcburi nişanlamanın hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması Qaydaları" ilə tənzimlənir. Həmin qaydalarda markalanmalı mallar, markaların növləri, sistemdən istifadə hüququ və sair, həmçinin aksiz markalarına və məcburi nişanlamaya dair ümumi tələblər öz əksini tapıb.

***– Bəs sistemdən istifadə zamanı diqqət yetirilməli əsas məqamlar hansılardır?***

– Sistemdən istifadə zamanı diqqət yetirilməli əsas məsələlərdən biri markalanmalı malların dəqiqləşdirilməsidir. Belə ki, aksiz markası və məcburi nişanlanma tətbiq olunan mallara içməli spirt, araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, konyak və konyak materialları, şampan şərabı, likör və likör məmulatları, şərab və şərab materialları, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli içkilər, energetik içkilər və tündləşdirilməmiş alkoqollu içkilər (tərkibindəki spirtin miqdarı 9 faizdən çox olmayan), yalnız məcburi nişanlama tətbiq olunan mallara isə tütün məmulatları, elektron siqaretlər üçün maye, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri, alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar, birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzedicləri aid edilir.

***– Maraqlıdır, hansı dövlət orqanları və ya özəl şirkətlər bu yeni sistemdən istifadə hüququna malikdirlər?***

– Əvvəlcə onu deyim ki, markaların sifarişi, çatdırılması barədə bildirişlərin verilməsi, aktivləşdirilməsi, izlənilməsi, eləcə də dövriyyəsi barədə məlumatların mərkəzləşdirilmiş qaydada saxlanılması və verilməsi sistem vasitəsilə həyata keçirilir. Təqib və izləmə sistemindən istifadə hüququ Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Maliyyə Nazirliyi və Dövlət Gömrük Komitəsi, həmçinin sifarişçilər, markalanmalı malların satıcıları və markalanmalı malların istehlakçılarına verilir. Operator Sistemdən istifadə hüququna malik şəxslərin real vaxt rejimində sistemə çıxışına imkan yaradır. Eyni zamanda markalanmalı malların istehlakçılarına müvafiq texniki vasitələrdən (mobil cihaz, planşet və digər) istifadə etməklə sistemə inteqrasiya edilmiş mobil tətbiq vasitəsilə məcburi nişanlamanı skan edərək markaları yoxlamaq və uyğunsuzluqlar barədə aidiyyəti dövlət orqanlarına (qurumlarına) məlumat vermək imkanı yaradır.

***– Suallarımızı ətraflı cavablandırdığınız üçün təşəkkür edirik!***

**✍ Nail ƏSGƏROV**

# Payızın bir ayı qışdandır, bir ayı yazdan



O zamanlar hələ uşaq olsam da, yaxşı xatirimdədir. Elə ki payız gəldi, şəhərdən kəndə, ata-baba ocaqlarına üz tutardı oğullar, qızlar. Babamın böyük meyvə bağı, onlarla arı pətəyi, mal-qarası, kənddən bir az uzaqda da "torpaq payı" dedikləri yerdə ona atasından miras qalan çoxlu tut, cəviz ağacları vardı. Oğul-uşaq bir yerə yığışar, həmin bağların barını toplayar, qız-gəlin isə bu bardan qış üçün doşab, meyvə quruları və daha neçə-neçə naz-nemətlər hazırlayardı. Həmin nemətləri də oğul-qızlarına pay-puş edərdi nənəm. Payız bar-bərəkət fəsli olduğu qədər həm də zəhmət fəslidir, axı. Elə ki payız gəldi, kəndimizin bərəkət ətri aləmi bürüyər, əkin yerləri, tarlalar, bağ-bağat məhsulla aşıb-daşardı. Qızıl payız günlərində kənddə hər kəs bar-bağçanın bar-bəhərini yır-yığış eləyər, əkib becərdikləri, nazını-qayğısını çəkdikləri torpaqdan son dəninə, son qozasına, son salxımınadək toplamaq üçün səylə çalışardılar.

Qızıl payızı həsrətlə gözləyənlər də vardı. Toy-büsat vaxtı kimi uğurlu sayıb, sevib əzizləyirdik payızı. El-oba adətinə görə, məhsul toplanandan sonra düzdən, bağdan, dağdan əl-ayaq yığışanda, payız almasının və payız armudunun yanağına xal düşəndə, günlərin birində toylar toylara calanardı. Elimizdə, obamızda adət idi, hansı meyvə hansı gün dişə dəysə, yəni meyvə ağacları ilk bara gəlsə, həmin meyvədən xonça tutar, oğlan evindən qız evinə göndərərdilər. Nişanlı oğlanların qız evinə apardıqları səbət-səbət meyvə sovqatına xalq arasında "novarlıq" və ya "nübarlıq" deyərdilər. Novarlıqdan qohum-qonşuya da paylanardı. Nənəm həmişə deyərdi ki, meyvənin nübarını yeyən adamın ürəyindən keçən dilək tezliklə qəbul olar.

Babam təsərrüfatçı olmaqla yanaşı, həm də müəllim idi. Hər zaman öyrətmək, nə isə izah etmək eşqiylə yaşayırdı. Biz nəvələrinə deyərdi ki, havalar tədricən sərinləşib, yarpaqlar saralmağa başladığı, meyvələrin hamısının yetişib, quşların öz yuvasını tərk edib, isti iqlimlərə köç etdiyi vaxtdan başlayır payız. Bu fəsildə dağların zirvəsi buludlanır, yaylaqlardan kükrəyə-kükrəyə gələn sel dağ çaylarını sıxışdırıb yatağından çıxarır, çaylar daşır, küləklər əsir, el-obaya payız xəbəri yetişir. Təbiət öz donunu dəyişərək qızıla bürünür. Babam deyərdi ki, payızın bu çağına el arasında "qoçqarışan" deyərlərmiş. Həmin müddətdə əvvəlcədən bəslənmiş qoçlar sürülərə buraxılırmış deyə nənə-babalarımız bu cür adlandırarmış bu dövrü. Hətta xalq arasında dağlara qar düşdüyü üçün çoxları bu dövrü "qoç boranı" da adlandırarmış.

Dünyagörmüş 97 yaşlı nənəm deyir ki, hələ biz uşaqkən elə ki elin sərvəti, var-dövləti ağaclardan, tənəklərdən daşınıb qurtarır, ürək arxayınlaşırdı. Uğurla başa çatan məhsul yığımı rahatlıq, xoş əhvali-ruhiyyə gətirir, bizi zəhmət qələbəsinin təntənəsinə çıxarırdı. Bu münasibətlə bayram edilərdi, şənliyə el ağsaqqalları, ahıllar, cavanlar, uşaqlar, yığışardılar. Bu bayram Novruz bayramı qədər yaşı olan "Mihircan" adlanırdı. Mihircan ilin əmək qələbəsi, ilin yekunu bayramı – məhsul bayramı kimi qeyd olunarmış.

Nənəmin sözlərinə görə, dədəbabalarımız payızda ağaclara, havaya, el-obanın üstündən köç eləyib gedən quşlara nəzər salmaqla göydən tökülən yağışın da, qarın da, qasırğa və tufanın da baş verəcəyini əvvəlcədən müəyyən edirmişlər. Belə bir inam var imiş ki, əgər qatarlanıb isti ölkələrə uçan durna dəstələri payızla vidalaşarkən alçaqdan uçarlarsa, qış sərt olacaq, yox, əgər durna köçü hündürdən qanad çalarsa, o zaman qış mülayim keçəcək. Bir də belə bir təcrübə var imiş, el arasında. Əgər payızın ilk ayında göy guruldasa, payız fəsli isti olacaq. Payızda yerə qar düşərsə, qış mülayim keçəcək, payız fəsli isti keçərsə, qış uzun sürəcək. Payız günlərində gecənin aydınlığında göydə ulduzlar sayrışanda, "sabah yaxşı gün olacaq" deyirmişlər babalarımız.

Nənəm deyir ki, əvvəllər kənd camaatı qış ehtiyaclarını toplamağa yazın ilk günlərindən başlayırdı. Sonuncu qarın əriməsiylə taxıl sahələrində boygöstərən tulça zoğlarından turşu qoyar, körpə əvəliklərdən hörüklər hörüb, qurudardılar. Üzü yaya otların nazını çəkər, mal-qaranın azuqəsini qar, su düşməyən yerlərə yığardılar. Əkin sahələrinin və meyvə bağlarının məhsulunu payızın sarı kəkili görünən kimi toplamağa başlayardılar. Bilirdilər ki, payız çaydaşıran leysanını başlarına tökməkdə gecikməyəcək. Bağ-bostanın məhsulundan satılıq olanını ayırıb rayon mərkəzinə enər, qışın ən əsas azuqəsini – un taylarını "ZİL" maşının arxasında üst-üstə qalayardılar. Kənddə hər kəs hərdən birinin evinə yığışar köməkli qışa tədarük görərdi. Ələyəz, əvəlik hörülər, dağ nanəsi, yarpız, kəklikotu, çobanyastığı qurudulardı. Turşular tutular, meyvələr dərilib əldamılara yığılar, cəviz, badam, fındıq kisələrə doldurulardı. Ağacların barlarından, nemətlərindən mürəbbə, kompot hazırlanardı. Əriştə kəsilər, qurudulub qovrular, buğdadan yarma hazırlayıb qış ruzisi kimi saxlanılardı. Bu işlər noyabrın axırlarınadək – çox soyuq düşməmiş yekunlaşdırılardı. Yayda qovurmalıq üçün bəslənilən ən gəlimli heyvanları kəsib, ətindən qovurma hazırlayıb, saxsı qablara doldurub, qışın oğlan çağına saxlanılardı.

Babam deyərdi ki, payız fəslinin son ayına – noyabr ayına xalq təqvimində "xəzəl ayı" deyirmişlər. İlin bu vədəsində göyün üzündə qara buludlar çoxalır, güclü yağışlar yağır. Qəfildən bulud haçalanır, göy nəriltiylə gurlayır, ildırım çaxır, dağların başında qılınc-qiyamət oynayır. Şimşəyin nərəsindən yer-göy lərzəyə gəlir, bitib-tükənməyən yağışın ardı-arası kəsilmək bilmir. Sel-su düz-dünyanı başına götürür. Belə vaxtlarda məcrasına sığmayan dağ çaylarının da nəriltisi adamı vahiməyə salır. Qayalardan, dağlardan sel şəlalə kimi axır, yekə-yekə daşları, qollu-budaqlı ağacları süpürləyib qabağına qatır. Babam deyir ki, əvvəllər çox güclü yağışlar yağdıqda yol-iz dağlar, hətta bəzən dağ kəndləri ilə əlaqə də kəsilərdi.

Babamın sözlərinə görə, payızın son ayında qəfildən başlayıb şiddətlə əsən küləkli-yelli soyuq günlərə el arasında "naxırqovan" deyirlərmiş. Belə sərt, şaxtalı günlərdə əsən külək, birinci növbədə, çöldə otarılan naxırı, yəni mal-qaranı tövləyə salırmış. Elə buna görə də bu dövr "naxırqovan" adlanırmış. Bundan sonra mal-qara qış boyu qışlaqda saxlanılar, yayda biçilib tayaya yüklənən otla yemlənər.

"...Payızın bir ayı qışdandır, bir ayı yazdan", – deyib atalarımız. Bu fəslin ilk günləri mülayim keçsə də, sonları küləkli, sazaqlı, hətta bəzən qarlı-boranlı olur. Ona görə də xalq qışa hazırlığı elə payızın ilk günlərindən başlayaraq sonuna qədər başa çatdırmağa çalışır ki, qarlı-şaxtalı qışı qarşılamağa hazır olsun. Həm də əvvəllər olduğu kimi, təəssüflə, nigarançılıqla deyil, xoş əhvali-ruhiyyə ilə. Çünki indi qış əvvəl olduğu kimi heç kimi qorxutmur. Nə qədər çovğunlu, qarlı, boranlı olsa da. Hər kəsin isti ocağında mavi yanacağı, daimi yanan işığı... Artıq kimsə qışda yandırmaq üçün odun hayına düşmür, insanlar sularının qışda donmaması üçün nə edəcəklərini düşünmür. Çünki hər birimizi ayrı-ayrılıqda düşünən dövlətimiz bu kimi sıxıntılarımızı çoxdan həll edib.

✍ **Gülcamal TAHİROVA**

## Yer təkindən istifadə ilə bağlı 15 noyabr 2024-cü il tarixdə saat $11^{00}$-da keçiriləcək hərracın elanı

Hərrac auksion formasında keçiriləcəkdir.
Şərur rayonu, "Arpaçay" qum-çınqıl yatağı

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın koordinatı | Başlanğıc qiyməti (manatla) | Beh məbləği (10 faiz) (manatla) | İştirak haqqı (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Arpaçay | LOT-1 | 200000$m^3$ | 4,0 ha | Qum-çınqıl | 20 ilədək | X4377680.230<br>Y502566.710<br>X4377674.056<br>Y502526.010<br>X4377659.507<br>Y502508.092<br>X4377682.476<br>Y502501.686 | 20000 | 2000 | 540 |

***Hərracın keçiriləcəyi ünvan:*** Naxçıvan şəhəri, Nəsrəddin Tusi küçəsi 19, (Naxçıvan Biznes Mərkəzi MMC)

***Qeyd:*** Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərracla bağlı məlumat almaq, iştirak haqqı və 10 faiz miqdarında beh məbləğini ödəmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edə bilərlər. (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42)

*Yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün aşağıdakı sənədləri müraciət ərizəsinə qoşma olaraq təqdim etməlidirlər:*

1. Hərracda iştirak etmək üçün yazılı ərizə-müraciət (əlavə olunur);
2. Hərracda iştirak haqqının ödənilməsi barədə bank sənədinin əsli;
3. Hərracda (müsabiqə və auksion) iştirak etmək üçün ödənilən iştirak haqqı (hərrac xərcləri) hərrac predmetinin ehtiyat həcmlərinə münasibətdə aşağıdakı qaydada (Lot üzrə) müəyyən edilir:

Ehtiyat həcmi 200 000 (iki yüz min) kub metrədək – 540,00 (beş yüz qırx) manat;

Ehtiyat həcmi 200 000 (iki yüz min) kub metrdən 500 000 (beş yüz min) kub metrədək – 810,00 (səkkiz yüz on) manat;

Ehtiyat həcmi 500 000 (beş yüz min) kub metrdən yuxarı olduqda – 1080,0 (bir min səksən) manat.

4. "Vergi ödəyicisinin vergi borcu barədə" arayış (müvafiq sənəd elektron qaydada alındıqda notarial təsdiqli olması zəruridir);
5. İddiaçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı (hesabdan çıxarış);
6. İddiaçının tam adı, hüquqi statusu: Hüquqi şəxsdirsə – nizamnaməsi, VÖEN-şəhadətnaməsi və dövlət reyestrindən çıxarışı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; fiziki şəxsdirsə – şəxsiyyəti təsdiq edən sənəd və VÖEN-şəhadətnaməsi (notarial qaydada təsdiqlənmiş);
7. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağ-mədən mühəndisi və 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;
8. İddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır.

İddiaçılar hərracda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 1 noyabr 2024-cü il saat $18^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 ünvanında (Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası) təqdim etməlidirlər.

Hərracda iştirak etmək üçün hüquqi və fiziki şəxslər Nazirliyə "Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydalarına" uyğun ərizə təqdim edir.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Hərracda iştirak etmək istəyənlər hər lot üzrə yatağın ehtiyat həcminə uyğun məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 (Əlaqələndirici şəxs: Əliyev Şövqi, telefon: (036) 545-34-85, 050-569-84-69) ünvanından ala bilərlər.

| |
|---|
| Hesab: AZ21NABZ12360100000000005944 |
| VÖEN: 0200003621 |
| Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu |
| Büdcə təsnifat kodu: 142325 |
| Büdcə səviyyəsinin kodu: 7 |

***İştirak haqqı heç bir halda geri qaytarılmır.***

Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10 faiz miqdarında beh məbləği ödənilməlidir.

Beh məbləği ödənilmədiyi təqdirdə iddiaçı hərraca buraxılmır.

## Elan

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Naxçıvan Müəllimlər İnstitutu aşağıdakı kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir:

***I.Kafedra müdiri vəzifəsi:***

-Humanitar və ictimai fənlər kafedrası
-Ali riyaziyyat və informatika kafedrası

***II. Kafedralar üzrə digər vəzifələr:***

*Pedaqogika və psixologiya kafedrası üzrə:*
-Müəllim – 3 yer (3 ştat)
*Ali riyaziyyat və informatika kafedrası üzrə:*
-Baş müəllim –1 yer (0,5 ştat)
-Müəllim – 1 yer (1ştat)
*Xarici dillər və tədrisi metodikası kafedrası üzrə:*
-Müəllim – 3 yer (3 ştat)
*Humanitar və ictimai fənlər kafedrası üzrə:*
-Baş müəllim – 1 yer (1 ştat)
*İncəsənət kafedrası üzrə:*
-Müəllim – 1 yer (1 ştat)
*Ümumi fənlər kafedrası üzrə:*
-Dosent – 1 yer (1ştat)
-Müəllim – 2 yer ( hər biri 0,5 ştat)

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud təlimati tələblərə uyğun şəkildə rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqədə Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tələblərinə cavab verən şəxslər iştirak edə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2, Naxçıvan Müəllimlər İnstitutu, Rektorluq***

### *İtmişdir*

Babək rayonu, Vayxır kənd sakini Mehdiyev Müzəffər Ələsgər oğlunun adına olan JN-117$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Əliyev Əli Teymur oğluna məxsus MV-063807 Azərbaycan Respublikası müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kənd sakini İmaməliyev Qəhrəman Əbil oğlunun adına olan JN-1643$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kənd sakini Məmmədov Ramazan Xaliq oğlunun adına olan 544$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Aşağı Buzqov kənd sakini Məmmədova Kəmalə Həsən qızının adına olan JN-36$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Qasımov Şöhrət Cəsarət oğlunun adına olan baş çavuşun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayon sakini Abbasov Elsevər Aslan oğlunun adına olan 319$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kənd sakini Əhmədov Qurban İbrahim oğlunun adına olan JN-477 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kənd sakini Əhmədov Cabbar İbrahim oğlunun adına olan JN-479 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Məmmədov Vəli Məmməd oğlunun adına olan A-471443 seriya nömrəli Əfqanıstan müharibəsi veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kəndində yaşamış Piriyeva Leyla Bayram qızının adına olan JN-134$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qahab kənd sakini Mirzəliyeva Nənə Nurməmməd qızının adına olan 103013004836 reyestr nömrəli pay torpaq sahəsinin plan ölçüsü və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Biçənək kəndində Hüseynova Aygün Tarverdi qızının adına verilmiş JN-159 nömrəli "Torpağa mülkiyyət hüququna dair" dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Şahtaxtı kəndində yaşamış Əliyev Məmməd Əkbər oğluna məxsus JN-100$^{A}$, 100$^{B}$, 100$^{C}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini Nəcəfov Məhərrəm Nəcəf oğluna məxsus MH-0076038 nömrəli Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılsın.

***

Şərur rayonu, Şəhriyar kənd sakini Sadıqova Səkinə Yusif qızının adına olan JN-349 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kültəpə kənd sakini Hüseynova Zivər Novruz qızının adına olan JN-423$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Biçənək kəndində Musayev Məmməd Azadxan oğlunun adına verilmiş JN-157 nömrəli "Torpağa mülkiyyət hüququna dair" dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kənd sakini Əhmədov Səfər İbrahim oğlunun adına olan JN-478 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunda yaşamış Əliyeva Sevgili Orucalı qızının adına olan evin 61 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Novruzlu Təbriz Fəxrəddin oğlunun adına Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 19, ev 16$^{D}$ nömrəli fərdi yaşayış evinin 17611 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Biçənək kəndində Musayev Şəmsəddin İboş oğlunun adına verilmiş JN-163 nömrəli "Torpağa mülkiyyət hüququna dair" dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00

Nömrəyə məsul: Əli Cabbarov
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 299